# V FƏSİL

## Bələdiyyələr haqqında Nazirlər Kabinetinin qərarları

MÜNDƏRİCAT


- "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması qaydalarının təsdiq edilməsi haqqında *(12 yanvar 2000-ci il)*
- "Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının Siyahısının təsdiq edilməsi barədə" *(8 iyul 2002-ci il)*
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 8 iyul tarixli, 106 nömrəli qərarı ilə təsdiq edilmiş "Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının Siyahısı"na dəyişikliklər edilməsi barədə *(13 may 2003-cü il)*
- Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında *(19 aprel 2005-ci il)*
- 2005-ci il sentyabrın 30-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş «Azərbaycan Respublikası Bələdiyyələr İttifaqının Nizamnaməsinin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanununa Azərbaycan Respublikası Prezidentinin etirazları haqqında *(23 dekabr 2005-ci il)*
- Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında *(7 mart 2006-cı il)*
- "Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları"nın təsdiq edilməsi haqqında *(16 fevral 2007-ci il)*
- Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında *(27 fevral 2007-ci il)*
- Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında *(12 fevral 2007-ci il)*
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 8 iyul tarixli 106 nömrəli qərarı ilə təsdiq edilmiş «Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının siyahısı»nda dəyişiklik edilməsi barədə *(5 iyun 2008-ci il)*
- "Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası"nın təsdiq edilməsi haqqında *(19 sentyabr 2009-cu il)*
- Bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli məqsədi ilə komissiyaların yaradılması haqqında *(26 noyabr 2009-cu il)*
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 sentyabr tarixli, 147 nömrəli qərarı ilə təsdiq edilmiş "Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası"nda dəyişiklik edilməsi barədə *(23 aprel 2010-cu il)*
- Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə əlavələrin həcminin müəyyən edilməsi haqqında *(27 may 2010-cu il)*
- "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"nın təsdiq edilməsi barədə *(30 dekabr 2012-ci il)*
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 12 yanvar tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması Qaydaları"nda dəyişiklik edilməsi haqqında *(20 iyun 2013-cü il)*

- "Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə əlavələrin həcminin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli 98 nömrəli qərarında dəyişikliklər edilməsi barədə *(24 fevral 2014-cü il)*
- Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamə"nin 23-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş bildirişin, səkkizinci cümləsində nəzərdə tutulmuş sorğunun və bu sorğu əsasında verilən məlumatların məzmununun müəyyən edilməsi barədə *(3 iyul 2014-cü il)*
- Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihəsi ilə əlaqədar bələdiyyə mülkiyyətində olan torpaqların dövlətin mülkiyyətinə və ya icarəsinə verilməsi ilə bağlı alğı-satqı və ya icarə müqavilələrinin bağlanmasını həyata keçirən orqanın müəyyən edilməsi barədə *(25 noyabr 2014-cü il)*
- “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununun 52-2-ci maddəsinin 3-cü hissəsinin ikinci abzasına uyğun olaraq, protokolun formasına və tərtibinə dair tələblər”in təsdiq edilməsi barədə *(3 fevral 2015-ci il)*
- Bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli məqsədi ilə komissiyaların yaradılması haqqında *(13 mart 2015-ci il)*
- “Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası”nın təsdiq edilməsi barədə *(13 oktyabr 2015-ci il)*
- “Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında (14 mart 2016-cı il)
- “Dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü Qaydaları”nın təsdiq edilməsi barədə *(28 oktyabr 2016-cı il)*
- “Yaşıllıq salınması məqsədi ilə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının və əhalinin əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunması Qaydası”nın təsdiq edilməsi haqqında *(28 fevral 2017-ci il)*
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli qərarı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında *(5 iyul 2017-ci il)*
- “Bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydası və bununla bağlı ödənişin miqdarı”nın təsdiq edilməsi barədə *(26 sentyabr 2018-ci il)*
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli qərarı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında *(25 oktyabr 2018-ci il)*
- “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1314-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 noyabr tarixli 746 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə *(5 dekabr 2018-ci il)*
- “Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” *(27 mart 2019-cu il)*
- “Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi və “Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı”nın təsdiq edilməsi haqqında” *(13 may 2019-cu il)*

# V FƏSİL

## Bələdiyyələr haqqında Nazirlər Kabinetinin qərarları

### Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması qaydalarının təsdiq edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli, 162 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması qaydaları təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A. RASİZADƏ**

Bakı şəhəri, 12 yanvar 2000-ci il
N-3

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2000-ci il 12 yanvar tarixli, 3 nömrəli qərarı ilə**
**TƏSDİQ EDİLMİŞDİR**

### Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması QAYDALARI

1. Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəriciləri Dövlət Statistika Komitəsi tərəfindən müəyyən olunmuş qaydada qeydiyyata alınır. Müəssisə və təşkilatlar Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş statistik göstəricilər və hesabatlar əsasında, müəyyən edilmiş qaydada və vaxtda bu barədə aidiyyəti statistika orqanlarına hesabat təqdim edirlər.
2. Bələdiyyələrin ərazisində yerləşən statistika orqanları Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış tövsiyə əsasında bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatlar üzrə statistik məlumatları rayon (şəhər) üzrə yekunlaşdırır, müvafiq bələdiyyə orqanlarına və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim edirlər.
3. Zəruri hallarda bələdiyyələrin sifarişi və vəsaiti hesabına Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə razılaşdırılmış sorğu anketləri əsasında bələdiyyələrin ərazisində statistik işlər planında nəzərdə tutulmamış müşahidələr keçirilə bilər.
4. Bələdiyyələrin tabeliyində olan müəssisə və təşkilatlar "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq öz fəaliyyətinə dair rüblük və illik maliyyə və mühasibat uçotu hesabatlarını və balanslarını müəyyən olunmuş həcmdə və müddətlərdə müvafiq maliyyə orqanlarına təqdim edirlər.

5. Bələdiyyələrin tabeliyində olan müəssisə və təşkilatlar bələdiyyələrin tabeliyinə verilməzdən əvvəl onların pul vəsaiti, əmlakı, hesablaşmaları, fondları və s. balans göstəriciləri bələdiyyələr tərəfindən təyin olunmuş inventarlaşdırma komissiyası vasitəsi ilə inventarlaşdırılır və nəticəsi aktla rəsmiləşdirilir.

**Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının Siyahısının təsdiq edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli, 498 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. İqtisadi İnkişaf Nazirliyinin bələdiyyələr və yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış təqdimatı əsasında "Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının siyahısı" təsdiq edilsin (əlavə olunur)

2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, müvafiq bələdiyyələr və yerli icra hakimiyyəti orqanları bir ay müddətinə bu qərardan irəli gələn məsələləri həll etsinlər.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A. RASİZADƏ**

Bakı şəhəri, 8 iyul 2002-ci il
№ 106

**Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının**

**S İ Y A H I S I** [1]

| Sıra №-si | Verilən əmlakın adı | Ünvanı | Balans sahibi | Bələdiyyənin adı |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** |
| | **Ağdaş rayonu** | | | |
| 1. | İnzibati binanın 3-cü mərtəbəsi | M.Ə.Rəsulzadə, 60 | Ağdaş Mənzil təsərrüfatı istehsalat istismarı-təmir müəssisəsi | Ağdaş şəhər bələdiyyəsi |
| | **Ağcabədi rayonu** | | | |
| 2. | Şəhər bulvarı | Ağcabədi şəhəri | Şəhər Yaşıllaşdırma İdarəsi | Ağcabədi şəhər bələdiyyəsi |
| 3. | Park | Ağcabədi şəhəri | Şəhər İH | Ağcabədi şəhər bələdiyyəsi |
| | **Abşeron rayonu** | | | |
| 4. | İnzibati binanın 2-ci mərtəbəsində 2 otaq | Xırdalan şəhəri, H. Aslanov küçəsi, 1 | Abşeron rayon İH | Xırdalan şəhər bələdiyyəsi |
| 5. | Güzdək qəsəbəsi üzrə icra nümayəndəliyinin inzibati binasında 1 otaq | Güzdək qəsəbəsi | Rayon İH-nin Güzdək qəsəbə nümayəndəliyi | Güzdək qəsəbə bələdiyyəsi |
| 6. | Fatmayı kəndi üzrə icra nümayəndəliyinin binasında 2 otaq | Fatmayı kəndi | Rayon İH-nin Fatmayı kənd nümayəndəliyi | Fatmayı kənd bələdiyyəsi |
| 7. | Saray qəsəbə nümayəndəliyinin yardımçı | Saray qəsəbəsi, Axundov küçəsi, | Rayon İH-nin Saray qəsəbə nümayəndəliyi | Saray qəsəbə bələdiyyəsi |

| | | | | |
|---|---|---|---|---|
| | binası | 27 | | |
| 8. | Rayon İH-nin Mehdiabad qəsəbə nümayəndəliyinin binasında 2 otaq | Mehdiabad qəsəbəsi | Rayon İH-nin Mehdiabad qəsəbə nümayəndəliyi | Mehdiabad qəsəbə bələdiyyəsi |
| | **Ağsu rayonu** | | | |
| 9. | Mədəniyyət və istirahət parkı | Ağsu şəhəri | Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi | Ağsu şəhər bələdiyyəsi |
| 10. | İnzibati binanın 3-cü mərtəbəsində 4 otaq və iclas zalı | Ağsu şəhəri, S.Vurğun küçəsi, 3 | Ağsu rayon Mənzil-İstismar İdarəsi | Ağsu şəhər bələdiyyəsi |
| | **Beyləqan rayonu** | | | |
| 11. | Yataqxana | Beyləqan şəhəri, 4 №-li Səyyar Mexanikləşdirilmiş Dəstə qəsəbəsi | Mənzil-İstismar Sahəsi | Beyləqan şəhər bələdiyyəsi |
| 12. | Yataqxana | Beyləqan şəhəri, 4 №-li Səyyar Mexanikləşdirilmiş Dəstə qəsəbəsi | Mənzil-İstismar Sahəsi | Beyləqan şəhər bələdiyyəsi |
| 13. | Yataqxana | Beyləqan şəhəri, 42 №-li Səyyar Mexanikləşdirilmiş Dəstə qəsəbəsi | Mənzil-İstismar Sahəsi | Beyləqan şəhər bələdiyyəsi |
| 14. | İnzibati bina | Beyləqan şəhəri, M.Ə.Rəsulzadə küçəsi, 1 | Kommunal müəssisələri kombinatı | Beyləqan şəhər bələdiyyəsi |
| | **Daşkəsən rayonu** | | | |
| 15. | Anbar və idarə binası | Qaraqollar kəndi | Rayon İH-nin Qaraqollar yerli ərazi nümayəndəliyi | Qaraqollar kənd bələdiyyəsi |
| 16. | "Dədə Qorqud - 1300" parkı | Daşkəsən şəhəri | Kommunal müəssisələri kombinatı | Daşkəsən şəhər bələdiyyəsi |
| 17. | İnzibati binanın 2-ci mərtəbəsində 5 otaq | Azadlıq meydanı, 1 | Rayon İH | Daşkəsən şəhər bələdiyyəsi |
| 18. | İdarə binası | Zəylik kəndi | Rayon İH-nin Zəylik yerli ərazi nümayəndəliyi | Zəylik kənd bələdiyyəsi |
| 19. | Mühasibat binası | Zəylik kəndi | Rayon İH-nin Zəylik yerli ərazi nümayəndəliyi | Zəylik kənd bələdiyyəsi |
| | **Şabran rayonu**[2] | | | |
| 20. | M.Nəzirov adına park | Şabran rayonu | Kommunal müəssisələri kombinatı | Şabran şəhər bələdiyyəsi |
| | **Şirvan şəhəri**[3] | | | |
| 21. | Kommunal müəssisələri kombinatının inzibati binası | G.Şıxbala oğlu küçəsi, 16 | Kommunal müəssisələri kombinatı | Əli Bayramlı şəhər bələdiyyəsi |
| 22. | Şəhər İH Hacı Qəhrəmanlı qəsəbə nümayəndəliyinin | Hacı Qəhrəmanlı qəsəbəsi | Şəhər İH-nin Hacı Qəhrəmanlı qəsəbəsi | Hacı Qəhrəmanlı qəsəbə bələdiyyəsi |

| | | | | |
|---|---|---|---|---|
| | inzibati binası (keçmiş məktəb binası) | | nümayəndəliyi | |
| | **Gəncə şəhəri** | | | |
| 23. | Z.Tağıyev küçəsindəki bağ | Z.Tağıyev küçəsi, 2-ci dalan | Gəncə şəhər Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Nizami rayon bələdiyyəsi |
| 24. | Novruz meydanı | Yeni Gəncə yaşayış sahəsi | Gəncə şəhər Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Nizami rayon bələdiyyəsi |
| | **Göyçay rayonu** | | | |
| 25. | İnzibati binanın 2-ci mərtəbəsində 5 otaq və iclas zalı | Nərimanov küçəsi, 32 | Rayon mənzil-İstismar sahəsi | Göyçay şəhər bələdiyyəsi |
| | **Gədəbəy rayonu** | | | |
| 26. | Park | S.Vurğun küçəsi | Rayon kommunal müəssisələri kombinatı | Gədəbəy şəhər bələdiyyəsi |
| 27. | Köhnə inzibati bina | M.Ə.Rəsulzadə küçəsi, 16 | Rayon kommunal müəssisələri kombinatı | Gədəbəy şəhər bələdiyyəsi |
| 28. | 1941-1945-ci illər üçün abidə kompleksi | Mirzəyev küçəsi | Rayon kommunal müəssisələri kombinatı | Gədəbəy şəhər bələdiyyəsi |
| | **Goranboy rayonu** | | | |
| 29. | İnzibati binanın 2-ci mərtəbəsində 4 otaq | V.Bayramov küçəsi, 68 | Rayon İcra Hakimiyyəti | Goranboy şəhər bələdiyyəsi |
| | **Hacıqabul rayonu** | | | |
| 30. | İnzibati binanın 2-ci mərtəbəsində 2 otaq | Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi, 7 | Rayon İcra Hakimiyyəti | Qazıməmməd şəhər bələdiyyəsi |
| | **Xaçmaz rayonu** | | | |
| 31. | Konserv kombinatının parkı | Xaçmaz şəhəri | 2 nömrəli mənzil istismar sahəsi | Xaçmaz şəhər bələdiyyəsi |
| | **Xızı rayonu** | | | |
| 32. | İnzibati binanın 2-ci mərtəbəsində 2 otaq | Xızı rayonu | Xızı rayon İH | Xızı şəhəri bələdiyyəsi[4] |
| | **İsmayıllı rayonu** | | | |
| 33. | İnzibati binanın 2-ci mərtəbəsində 6 otaq və iclas zalı | İsmayıllı şəhəri, 20 Yanvar küçəsi | İsmayılı rayon İH | İsmayıllı şəhər bələdiyyəsi |
| 34. | Keçmiş Lahıc qəsəbə İcraiyyə Komitəsinin köhnə inzibati binası | Lahıc qəsəbəsi | Rayon İH-nin Lahıc nümayəndəliyi | Lahıc qəsəbə bələdiyyəsi |
| | **İmişli rayonu** | | | |
| 35. | Fəvvarə | M.Əsədov küçəsi | Rayon kommunal müəssisələri kombinatı | İmişli şəhər bələdiyyəsi |
| 36. | 2 mərtəbəli inzibati binanın 2-ci mərtəbəsində 8 otaq | M.Əsədov küçəsi, 5 | İmişli Rayon İH | İmişli şəhər bələdiyyəsi |
| 37. | Sabir adına uşaq və məktəblilər parkı | Nizami küçəsi | Rayon kommunal müəssisələri kombinatı | İmişli şəhər bələdiyyəsi |

| | | | | |
|---|---|---|---|---|
| | **Kürdəmir rayonu** | | | |
| 38.[5] | Bir mərtəbəli 1 ədəd əsas və bir mərtəbəli 4 ədəd yardımçı bina | Kürdəmir şəhəri, Qarabağ küçəsi, 50 | Daxili İşlər Nazirliyi | Kürdəmir Şəhər Bələdiyyəsi |
| | **Qax rayonu** | | | |
| 39. | N.Nərimanov adına park | 20 yanvar küçəsi | Qax rayon Mədəniyyət şöbəsi | Qax şəhər bələdiyyəsi |
| 40. | Nizami adına park | Azadlıq küçəsi | Rayon kommunal müəssisələri kombinatı | Qax şəhər bələdiyyəsi |
| 41. | İnzibati binanın 2-ci mərtəbəsi | Azadlıq küçəsi, 26 | Rayon İH | Qax şəhər bələdiyyəsi |
| | **Qəbələ rayonu** | | | |
| 42. | Kənd icra nümayəndəliyinin binası | Böyük Pirəlli kəndi | Rayon İH | Böyük Pirəlli kənd bələdiyyəsi |
| 43. | Kənd icra nümayəndəliyinin idarə binası | Kiçik Pirəlli kəndi | Rayon İH | Kiçik Pirəlli kənd bələdiyyəsi |
| | **Qazax rayonu** | | | |
| 44. | İnzibati binanın 2-ci mərtəbəsi 6 otaq | Qazax şəhəri, Sabir küçəsi, 177 | Rayon İH | Qazax şəhər bələdiyyəsi |
| 45. | Kənd icra nümayəndəliyində 2 otaq | İkinci Şıxlı kəndi | Rayon İH-nin İkinci Şıxlı kənd nümayəndəliyi | İkinci Şıxlı kənd bələdiyyəsi |
| 46. | Kənd icra nümayəndəliyində 1 otaq | Xanlıqlar kəndi | Rayon İH-nin Xanlıqlar kənd nümayəndəliyi | Xanlıqlar kənd bələdiyyəsi |
| 47. | Kənd icra nümayəndəliyində 2 otaq | Orta Salahlı kəndi | Rayon İH-nin Orta Salahlı kənd nümayəndəliyi | Orta Salahlı kənd bələdiyyəsi |
| 48. | Kənd icra nümayəndəliyində 3 otaq | Çaylı kəndi | Rayon İH-nin Çaylı kənd nümayəndəliyi | Çaylı kənd bələdiyyəsi |
| 49. | Kənd icra nümayəndəliyində 2 otaq | Birinci Şıxlı kəndi | Rayon İH-nin Birinci Şıxlı kənd nümayəndəliyi | Birinci Şıxlı kənd bələdiyyəsi |
| 50. | Kənd icra nümayəndəliyində 3 otaq | Yuxarı Salahlı kəndi | Rayon İH-nin Yuxarı Salahlı kənd nümayəndəliyi | Yuxarı Salahlı kənd bələdiyyəsi |
| 51. | Kənd icra nümayəndəliyində 1 otaq | Qaymaqlı kəndi | Rayon İH-nin Qaymaqlı kənd nümayəndəliyi | Qaymaqlı kənd bələdiyyəsi |
| | **Quba rayonu** | | | |
| 52. | İnzibati idarə binasında 8 otaq və iclas zalı | Quba şəhəri, Qələbə küçəsi, 8 | RİH | Quba şəhər bələdiyyəsi |
| | **Lerik rayonu** | | | |
| 53. | Fin evi | Pirəsora kəndi | Mənzil Kommunal Təsərrüfat Birliyi | Pirəsora kənd bələdiyyəsi |
| | **Mingəçevir şəhəri** | | | |
| 54. | M.Ə.Rəsulzadə prospektində inzibati binanın 2-ci və 3-cü mərtəbələri | M.Ə.Rəsulzadə prospekti, 26/11 | Mənzil təsərrüfatı və abadlaşdırma müəssisəsi | Mingəçevir şəhər bələdiyyəsi |
| 55. | S.Vurğun adına İstirahət bağı | S. Vurğun | Şəhər Mənzil | Mingəçevir şəhər |

| | | | | |
|---|---|---|---|---|
| | | meydanı | Kommunal Təsərrüfatı İstehsalat Birliyi | bələdiyyəsi |
| 56. | M.Hüseynzadə adına "Sahil" bağı | N.Rəfibəyli küçəsi | Şəhər Mədəniyyət şöbəsi | Mingəçevir şəhər bələdiyyəsi |
| 57. | Fəvvarə | M.P.Vaqif küçəsi | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 58. | Fəvvarə | M.Ə.Rəsulzadə prospekti, 34 nömrəli binanın qarşısı | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 59. | Fəvvarə | M.Ə.Rəsulzadə prospekti, 47/2 nömrəli binanın qarşısı | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 60. | Fəvvarə | M.Ə.Rəsulzadə prospekti, "Mingəçevir-bazar" ATSC-nin qarşısı | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 61. | Fəvvarə | S.Mustafayev adına meydan | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 62. | Fəvvarə | N.Rəfibəyli küçəsi | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 63. | Fəvvarə | Ailə istirahət mərkəzi | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| 64. | Fəvvarə | Füzuli küçəsi | Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Mingəçevir şəhər bələdiyyəsi |
| | **Neftçala rayonu** | | | |
| 65. | İnzibati binanın 2-ci mərtəbəsində 7 otaq | Nizami küçəsi, 66 | RİH | Neftçala şəhər bələdiyyəsi |
| 66. | 3 otaqlı taxta inzibati bina | 2 №-li Mayak kəndi | Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi | 2 №-li Mayak kənd bələdiyyəsi |
| 67. | İnzibati binanın 6 otağı | Həsənabad kəndi | Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi | Həsənabad qəsəbə bələdiyyəsi |
| 68. | İnzibati binada 1 otaq | 1 №-li Mayak kəndi | Rayon İH-nin Yenikənd kənd ərazi nümayəndəliyi | 1 №-li Mayak kənd bələdiyyəsi |
| 69. | Aşağı Surra kənd ərazi nümayəndəliyinin binasında bir otaq | Aşağı Surra kəndi | Rayon İN-nin Aşağı Surra kənd ərazi nümayəndəliyi | Aşağı Surra kənd bələdiyyəsi |
| 70. | 4 otaqlı binanın 3 otağı | Xıllı qəsəbəsi | Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi | Xıllı qəsəbə bələdiyyəsi |
| | **Naftalan şəhəri** | | | |
| 71. | "Qələbə" parkı | Q.Namazəliyev | Mənzil Kommunal | Naftalan şəhər |

| | | | | |
|---|---|---|---|---|
| | | küçəsi | Təsərrüfatı Birliyi | bələdiyyəsi |
| | **Oğuz rayonu** | | | |
| 72. | Böyük Vətən Müharibəsi iştirakçıları abidəsi | Oğuz şəhəri, S.Vurğun küçəsi | Şəhər İcra nümayəndəliyi | Oğuz şəhər bələdiyyəsi |
| | **Saatlı rayonu** | | | |
| 73. | Rayonun mərkəzi parkı | Saatlı şəhəri, "Azərbaycan" xiyabanı | Rayon kommunal təsərrüfatı kombinatı | Saatlı şəhər bələdiyyəsi |
| 74. | "Qızlar bulağı" bağçası | Saatlı şəhəri, "Azərbaycan" xiyabanı | Rayon kommunal təsərrüfatı kombinatı | Saatlı şəhər bələdiyyəsi |
| | **Sumqayıt şəhəri** | | | |
| 75. | Şəhər bağı | Sumqayıt şəhəri | Şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi | Sumqayıt şəhər bələdiyyəsi |
| 76. | İnzibati binada 5 otaq | H.Zeynalabdin qəsəbəsi, S.Bəhlulzadə küçəsi, 8 | Sumqayıt şəhər İH | H.Zeynalabdin qəsəbə bələdiyyəsi |
| 77. | Corat qəsəbə nümayəndəliyinin binasında 2 otaq | Corat qəsəbəsi, Sülh küçəsi | İH-nin Corat qəsəbə nümayəndəliyi | Corat qəsəbə bələdiyyəsi |
| | **Şəmkir rayonu** | | | |
| 78. | İnzibati binanın 3-cü mərtəbəsi | Nizami küç, 1 | Rayon İH | Şəmkir şəhər bələdiyyəsi |
| | **Şamaxı rayonu** | | | |
| 79. | İnzibati binanın 2-ci mərtəbəsində 6 otaq | Azərbaycan küçəsi, 30 | İH-nin Şamaxı şəhər nümayəndəliyi | Şamaxı şəhər bələdiyyəsi |
| | **Tərtər rayonu** | | | |
| 80. | İnzibati binanın 2-ci mərtəbəsində 6 otaq | E.Hüseynov küçəsi, 108 | Tərtər rayon mənzil istismar sahəsi | Tərtər şəhər bələdiyyəsi |
| | **Tovuz rayonu** | | | |
| 81. | İnzibati bina | Tovuz şəhəri, Sabir küçəsi, 43 | Tovuz rayon mənzil istismar sahəsi | Tovuz şəhər bələdiyyəsi |
| 82. | "Qəhrəmanlar" parkı və oradakı abidələr | Tovuz şəhəri | Rayon İH-nin Tovuz şəhər nümayəndəliyi | Tovuz şəhər bələdiyyəsi |
| 83. | «Pionerlər» parkı | Tovuz şəhəri | Rayon İH-nin Tovuz şəhər nümayəndəliyi | Tovuz şəhər bələdiyyəsi |
| 84. | 1941-1945-ci illər abidə kompleksi | Tovuz şəhəri | Rayon İH-nin Tovuz şəhər nümayəndəliyi | Tovuz şəhər bələdiyyəsi |
| 85. | Nizami adına park | Tovuz şəhəri | Rayon İH-nin Tovuz şəhər nümayəndəliyi | Tovuz şəhər bələdiyyəsi |
| | **Ucar rayonu** | | | |
| 86. | İnzibati binanın 2-ci mərtəbəsi | N.Nərimanov küçəsi, 81 | Rayon mənzil istismar sahəsi | Ucar şəhər bələdiyyəsi |
| | **Yevlax şəhəri** | | | |
| 87. | Kənd nümayəndəliyinin binasında 1 otaq | Yevlax rayonu, Havarlı kəndi | Rayon İH-nin Havarlı kənd nümayəndəliyi | Havarlı kənd bələdiyyəsi |
| 88. | S.Vurğun adına park | S.Əliyev küçəsi | Rayon Mənzil | Yevlax şəhər |

| | | | | |
|---|---|---|---|---|
| | | | Kommunal Təsərrüfatı Birliyi | bələdiyyəsi |
| 89. | Mərkəzi park | S.Əliyev küçəsi | Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi | Yevlax şəhər bələdiyyəsi |
| 90. | Kənd nümayəndəliyində iş otağı | Yuxarı Qarxun kəndi | Rayon İH-nin Yuxarı Qarxun kənd nümayəndəliyi | Yuxarı Qarxun kənd bələdiyyəsi |
| | **Zərdab rayonu** | | | |
| 91. | İnzibati binanın 3-cü mərtəbəsində 5 otaq | Zərdab şəhəri, M.Rəsulzadə küçəsi, 14 | Rayon mənzil istismar sahəsi | Zərdab şəhər bələdiyyəsi |
| | **Zaqatala rayonu** | | | |
| 92. | RİH-nin şəhər nümayəndəliyinin binasında 4 otaq (3-cü mərtəbədə) | Zaqatala şəhəri, Nizami küçəsi, 9 | Rayon İH-nin şəhər nümayəndəliyi | Zaqatala şəhər bələdiyyəsi |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 8 iyul tarixli, 106 nömrəli qərarı ilə təsdiq edilmiş "Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının Siyahısı"na dəyişikliklər edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İqtisadi İnkişaf Nazirliyi, Kürdəmir Rayon İcra Hakimiyyəti və Kürdəmir Şəhər Bələdiyyəsi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 8 iyul tarixli, 106 nömrəli qərarı ilə təsdiq edilmiş " Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının Siyahısı"nın 38-ci bəndi aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| | "Kürdəmir rayonu | | | |
| 38. | Bir mərtəbəli 1 ədəd əsas və bir mərtəbəli 4 ədəd yardımçı bina | Kürdəmir şəhəri, Qarabağ küçəsi, 50 | Daxili İşlər Nazirliyi | Kürdəmir Şəhər Bələdiyyəsi |

2. Kürdəmir şəhəri, Azadlıq küçəsi, 3 ünvanında yerləşən inzibati bina Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin balansına verilsin.

3. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Kürdəmir Rayon İcra Hakimiyyəti və Kürdəmir Şəhər Bələdiyyəsi bu qərardan irəli gələn məsələləri həll etsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A. RASİZADƏ**

Bakı şəhəri, 13 may 2003-cü il
N-62

**Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

«Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın —Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzinin illik məruzəsini dinləyərək **qərara alır:**

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın —Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzinin illik məruzəsi nəzərə alınsın.

**Azərbaycan Respublikası Milli Məclisinin sədri**
**M.ƏLƏSGƏROV**

Bakı şəhəri, 19 aprel 2005-ci il
№ 893-IIQR.

**2005-ci il sentyabrın 30-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş «Azərbaycan Respublikası Bələdiyyələr İttifaqının Nizamnaməsinin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanununa Azərbaycan Respublikası Prezidentinin etirazları haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI**

Azərbaycan Respublikası Konstitusiyasının 110-cu maddəsinin I hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2005-ci il sentyabrın 30-da qəbul edilmiş «Azərbaycan Respublikası Bələdiyyələr İttifaqının Nizamnaməsinin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanununu imzalamadan, 2005-ci il oktyabrın 31-də öz etirazları ilə Milli Məclisə qaytarmışdır.

Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 21-ci maddəsinin ikinci hissəsinə əsaslanaraq, Milli Məclisin sədri Azərbaycan Respublikası Prezidentinin qaytardığı «Azərbaycan Respublikası Bələdiyyələr İttifaqının Nizamnaməsinin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanununu 2005-ci il dekabrın 15-də Milli Məclisin Regional məsələlər daimi komissiyasının rəyinə göndərmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin adı çəkilən daimi komissiyası 2005-ci il dekabrın 15-də keçirdiyi iclasda bu məsələyə baxaraq, Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 21-ci maddəsinin ikinci hissəsinə əsasən, Milli Məclisə təklif etmişdir ki, «Azərbaycan Respublikası Bələdiyyələr İttifaqının Nizamnaməsinin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanununun məqsədəuyğun olmaması barədə Azərbaycan Respublikası Prezidentinin təklifi qəbul edilsin.

Yuxarıda şərh edilənlərə əsasən, Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası Bələdiyyələr İttifaqının Nizamnaməsinin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanununun məqsədəuyğun olmaması barədə təklifi qəbul edilsin.

**Azərbaycan Respublikası Milli Məclisinin sədri**
**O. ƏSƏDOV**

Bakı şəhəri, 23 dekabr 2005-ci il
№ 40-IIIQR.

**Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

«Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın — Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzinin illik məruzəsini dinləyərək, **qərara alır:**

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzinin illik məruzəsi nəzərə alınsın.

**Azərbaycan Respublikası Milli Məclisinin sədri**
**O.ƏSƏDOV**

Bakı şəhəri, 7 mart 2006-cı il
№ 84-IIIQR

**"Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları"nın təsdiq edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 dekabr tarixli 326 nömrəli Fərmanının 1.7-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A. RASİZADƏ**

Bakı şəhəri, 16 fevral 2007-ci il
№ 33

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2007-ci il 16 fevral tarixli 33 nömrəli qərarı ilə**
**TƏSDİQ EDİLMİŞDİR**

**Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması**

## FORMALARI və QAYDALARI

1. Bu Qaydalar "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 dekabr tarixli 326 nömrəli Fərmanına uyğun olaraq hazırlanmışdır və dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması formaları və qaydalarını müəyyən edir.

2. Dövlət orqanları və bələdiyyələr "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 29.1-ci maddəsində göstərilən ictimai informasiyaları açıqlamaq üçün İnternet informasiya ehtiyatları yaradırlar. Mərkəzi icra hakimiyyəti orqanları onların tabeliyində olan dövlət orqanlarının İnternet informasiya ehtiyatları formalaşdırmalarına şərait yaratmalıdırlar. Bu məqsədlə sahə (korporativ), regional və s. formada İnternet informasiya ehtiyatları yaradıla bilər.

3. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 9.1.2-ci və 9.3-cü maddələrində göstərilən informasiya sahibləri ictimai informasiyaları açıqlamaq məqsədilə İnternet şəbəkəsində ayrı-ayrılıqda və ya birgə informasiya ehtiyatları yarada bilərlər.

4. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 9.1.1-ci maddəsində göstərilən informasiya sahibləri:

4.1. İnternet informasiya ehtiyatları ilə tanış olmaq imkanları barədə məlumatı əks etdirən müvafiq ünvanları və ya onlara edilən dəyişiklikləri kütləvi informasiya vasitələrində açıqlamaq yolu ilə ictimaiyyətə çatdırırlar;

4.2. İnternet informasiya ehtiyatlarında ən yeni və aktual informasiyaları yerləşdirirlər;

4.3. köhnəlmiş, natamam, qeyri-dəqiq və ya çaşqınlıq yaradan informasiyaları İnternet informasiya ehtiyatlarında yerləşdirməkdən imtina edirlər;

4.4. İnternet informasiya ehtiyatlarında sənədin yerləşdirildiyi vaxtı və açıqlanması tarixini göstərirlər;

4.5. İnternet informasiya ehtiyatlarında yerləşdirilən ictimai informasiyaların tez və asan əldə edilməsi üçün şərait yaradırlar;

4.6. İnternet informasiya ehtiyatlarının etibarlı fəaliyyətini təmin edirlər.

5. Dövlət sirri təşkil edən və yayılması məhdudlaşdırılmış xidməti informasiyanın işlənilən, habelə məhdudlaşdırılmış daxilolma növlü informasiya ehtiyatları yerləşən informasiya sistemlərinin, rabitə şəbəkələrinin və fərdi kompüterlərin informasiya mübadiləsi üçün istifadə edilən digər informasiya sistemləri və şəbəkələrinin, o cümlədən İnternet şəbəkəsinin tərkibinə daxil edilməsinə yol verilmir.

6. Əldə edilməsi məhdudlaşdırılan informasiya İnternet informasiya ehtiyatlarına daxil edilibsə, bu zaman onun əldə olunmasını mümkünsüz edən tədbirlər görülməlidir.

7. Açıq dövlət və bələdiyyə informasiya ehtiyatlarının mülkiyyətçiləri və istifadəçiləri bu ehtiyatları İnternet şəbəkəsi də daxil olmaqla, informasiya mübadiləsi üçün istifadə edilən informasiya sistemləri və şəbəkələrinə, rabitə şəbəkələrinə qoşan texniki vasitələri dövlət sirri təşkil edən məsələlərin müzakirə olunduğu və məxfi danışıqların aparılması nəzərdə tutulan yerlərdən kənarda yerləşdirməlidirlər.

8. Dövlət orqanları və bələdiyyələr "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq sertifikatlaşdırılmış informasiya sistemlərindən, məlumat bazalarından, məlumat banklarından, informasiya mühafizə vasitələrindən istifadə etməli və informasiya ehtiyatlarının və proseslərinin mühafizəsini təmin etməlidirlər.

9. Dövlət orqanları İnternet şəbəkəsi ilə əlaqəni, ondan istifadəni və həmin şəbəkədə informasiyanın yerləşdirilməsini "Azərbaycan Respublikasının dövlət orqanlarında informasiya təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 172 nömrəli Fərmanına müvafiq həyata keçirirlər.

10. Hər bir dövlət orqanının domen ünvanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 31 mart tarixli 91 nömrəli qərarı ilə təsdiq edilmiş "GOV.AZ domeninin inzibatlaşdırılması Qaydaları"na uyğun müəyyən edilməlidir.

11. Dövlət orqanları və bələdiyyələr inteqrasiya oluna bilən İnternet saytlarına malik olmalıdırlar. Sayt üzərindən informasiya sorğularının qəbulu və saytdan informasiya sahibinin sənədlərinin reyestrinə müraciət edib məlumat əldə edilməsi imkanları təmin edilməlidir.

12. Dövlət orqanları və bələdiyyələrin İnternet saytları aşağıdakı texniki tələbatları ödəməlidir:

12.1. qanunvericiliyin tələblərindən irəli gələn bütün vəzifələrin yerinə yetirilməsini təmin edən funksiyalara və xidmətlərə malik olmalıdır;

12.2. İnternet resursunun, müvafiq məlumat bazasının sanksiyalaşdırılmamış müdaxilədən etibarlı mühafizəsi və saytların təhlükəsizliyinin proqram təminatı sistem baxımından tam təmin olunmalıdır;

12.3. istifadəçilərin proqram və log-fayllara keçidi olmamalıdır;

12.4. saytların müxtəlif brauzerlərdə açılması və məlumatların düzgün oxunuşu təmin olunmalıdır;

12.5. saytlar sorğuların sürətli emalını təmin etməli, dayanıqlı xidmət göstərmə qabiliyyətinə malik olmalıdır;

12.6. saytların verilənlər bazası İSO 10646 (Unicode) formatını dəstəkləməlidir;

12.7. saytların proqram təminatı məlumatları verilənlər bazasına həm İnternet bağlantısı üzərindən, həm də lokal şəbəkə vasitəsilə daxil etməyə imkan verməlidir;

12.8. saytlar üzrə axtarış sistemi olmalı və axtarış simvolların registrindən asılı olmamalıdır;

12.9. İnternet saytları dövlət dilində və tələbatdan asılı olaraq, ən azı bir geniş yayılmış xarici dildə tərtib olunmalıdır;

12.10. saytların proqram təminatı və verilənlər bazası lazım gəldikdə, yeni texnologiyalara keçmək üçün inteqrasiya edilə bilən olmalıdır;

12.11. məlumatların düzgünlüyü və mətnlərin üslubu, qrammatik redaktəsi sayt sahibi tərəfindən təmin edilməlidir;

12.12. saytların xarici görünüşü, naviqasiya sistemi və istifadə rahatlığı məsələləri sayt sahibi tərəfindən saytın funksionallığı və qanunun tələblərinin qarşıya qoyduğu vəzifələri pozmamaqla müəyyən edilməlidir;

12.13. digər dövlət orqanları və bələdiyyələrin, habelə aidiyyəti beynəlxalq təşkilatların saytlarına keçidlər olmalıdır.

13. Dövlət orqanlarında və bələdiyyələrdə informasiya və kommunikasiya texnologiyaları (bundan sonra - İKT) mühiti yaradılmalıdır. Dövlət orqanlarının və bələdiyyələrin İKT mühitinin yaradılmasını aşağıdakı proseslər təşkil edir:

13.1. dövlət orqanlarının və bələdiyyələrin kompüterləşdirmə və avtomatlaşdırma prinsipinə uyğun iş rejiminə keçməsi;

13.2. dövlət orqanlarının və bələdiyyələrin lokal şəbəkəyə malik olması;

13.3. İnternet şəbəkəsinə çıxışın təmin edilməsi;

13.4. dövlət orqanlarının və bələdiyyələrin elektron poçt ünvanının olması;

13.5. İnternet şəbəkəsindən istifadə zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi;

13.6. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun elektron sənəd dövriyyəsinin təmin edilməsi;

13.7. İKT üzrə müvafiq struktur bölmənin mövcudluğu və bu sahədə mütəxəssislərə malik olması.

14. Dövlət orqanları və bələdiyyələrin İKT üzrə struktur bölməsi aşağıdakı funksiyaları yerinə yetirir:

14.1. məlumatların təhlükəsizliyinin qorunması;

14.2. məlumat bazaları ilə bağlantının sürətlə həyata keçirilməsi;

14.3. sorğuların emalının sürətlə həyata keçirilməsi;

14.4. İnternet şəbəkəsi ilə əlaqəsinin kəsilməzliyi;

14.5. zəruri hallarda optimal genişləndirilməsi;

14.6. məlumat bazalarının ehtiyatlarının (rezervlərinin) təmin olunması.

15. İnformasiya resursunun təhlükəsizliyinin təmin edilməsi məqsədilə vaxtaşırı həmin resursun ehtiyat nüsxəsi (Back Up) informasiya daşıyıcılarına köçürülməli və ya digər üsullardan istifadə olunmalıdır.

**Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

«Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın — Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzinin illik məruzəsini dinləyərək **qərara alır:**

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın — Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzinin illik məruzəsi nəzərə alınsın.

**Azərbaycan Respublikası Milli Məclisinin Sədri**
**O.ƏSƏDOV**

Bakı şəhəri, 27 fevral 2007-ci il
№ 252-IIIQR

**Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin illik məruzəsini dinləyərək **qərara alır:**

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin illik məruzəsi nəzərə alınsın.

**Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini**
**Z.Əsgərov**

Bakı şəhəri, 12 fevral 2008-ci il
№ 549-IIIQR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 8 iyul tarixli 106 nömrəli qərarı ilə təsdiq edilmiş «Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının siyahısı»nda dəyişiklik edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Azərbaycan Respublikasının Xızı rayonunun Xızı qəsəbəsinə şəhər statusunun verilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 may tarixli 2798 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 8 iyul tarixli 106 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 7, maddə 446; 2003-cü il, № 5, maddə 248; 2006-cı il, № 12, maddə 1161) ilə təsdiq edilmiş «Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının siyahısı»nın «Bələdiyyənin adı» sütununun 32-ci bəndində «Xızı qəsəbə» sözləri «Xızı şəhər» sözləri ilə əvəz edilsin.
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A. RASİZADƏ**

Bakı şəhəri, 05 iyun 2008-ci il
№ 131

**"Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası"nın təsdiq edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2009-cu il 17 mart tarixli 777-IIIQD nömrəli Qanununun icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyul tarixli 135 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A. Rasi-zadə**

Bakı şəhəri, 19 sentyabr 2009-cu il
№ 147

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2009-cu il 19 sentyabr tarixli 147 nömrəli qərarı ilə**
**TƏSDİQ EDİLMİŞDİR**

## Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Qanunun (bundan sonra - Qanun) 8-1-ci maddəsinə əsasən hazırlanmışdır və bələdiyyələr birləşərkən, ayrılarkən və ləğv edilərkən onlara məxsus mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılmış komissiyanın say tərkibi və fəaliyyət qaydasını müəyyən edir.

1.2. Bələdiyyələr birləşərkən, ayrılarkən və ləğv edilərkən onlara məxsus mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı əsasında komissiya yaradılır.

1.3 Komissiyaya Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, ~~Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin,~~ Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yerli nümayəndələri, müvafiq yerli icra hakimiyyəti orqanının və bələdiyyə üzvlərinin (o cümlədən, birləşən, ayrılan və ləğv edilən bələdiyyələrin, habelə ərazi vahidi bir bələdiyyənin tərkibindən ayrılaraq digər bələdiyyənin tərkibinə daxil edildiyi hallarda həmin bələdiyyənin üzvlərindən) hərəsindən bir nümayəndə daxil edilir.[1]

1.4. Komissiya ictimai əsaslarla fəaliyyət göstərir və görülən işlər barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə hesabat verir.

1.5. Komissiyaya Azərbaycan Respublikasının Ədliyyə Nazirliyindən olan nümayəndə sədrlik edir.

1.6. Bu Qaydanın 1.2-ci bəndinə uyğun olaraq yaradılan komissiyanın yerlərdəki fərdi tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müvafiq qərar qəbul edildiyi gündən 15 gün müddətində bu Qaydanın 1.3-cü bəndində göstərilən dövlət orqanlarının və bələdiyyələrin təklifləri əsasında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilir.

1.7. Komissiyanın səlahiyyətləri bələdiyyənin birləşməsi, ayrılması və ya ləğv edilməsi nəticəsində onların əmlakının müvafiq bələdiyyəyə təhvil verilməsi və ya Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verilməsi barədə müvafiq hesabat təqdim edildikdən sonra bitmiş hesab olunur.

## 2. Komissiyanın fəaliyyət qaydası

2.1. Komissiya fəaliyyətini iclasları vasitəsilə həyata keçirir. Komissiya üzvlərinin azı üçdə ikisi iclasda iştirak edərsə, komissiya öz səlahiyyətlərinə aid olan məsələləri həll etmək hüququna malikdir. Komissiya birinci iclasının baş tutduğu gündən fəaliyyətə başlamış hesab olunur. Komissiyanın qərarları iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermədə hər bir komissiya üzvü bir səsə malikdir. Səslər bərabər olduqda, komissiya sədrinin səsi həlledici hesab olunur. Komissiyanın qərarları iclasda iştirak etmiş bütün komissiya üzvləri tərəfindən imzalanır. Qərarla razı olmayan komissiya üzvü öz imzası qarşısında qeyd etməklə xüsusi rəyini qərara əlavə edir.

2.2. Bələdiyyələr birləşərkən onların mülkiyyəti ayrı-ayrılıqda komissiyanın qəbul etdiyi qərar əsasında siyahıya alınır. Siyahıya alınmış əmlak hüquq varisliyi qaydasında komissiyanın qərarına uyğun olaraq akt əsasında yeni yaradılmış bələdiyyəyə təhvil verilir və bu əmlakla bağlı hüquqlar (vəzifələr) həmin bələdiyyəyə keçir.

2.3. Bələdiyyələr ayrıldıqda (bölündükdə) onların mülkiyyəti komissiya tərəfindən siyahıya alınır. Siyahıya alınmış əmlak komissiyanın qərarına uyğun olaraq bölünmə balansı və akt əsasında yeni yaranmış bələdiyyələrə, ərazi vahidi bir bələdiyyənin tərkibindən ayrılaraq digər bələdiyyənin tərkibinə daxil edildiyi hallarda isə həmin bələdiyyələrə təhvil verilir və bu əmlakla bağlı hüquq və vəzifələr həmin bələdiyyələrə keçir.

2.4. Qanunun 8-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq ərazi vahidi kimi ərazi vahidlərinin ~~və inzibati ərazi dairələrinin~~ Dövlət reyestrindən çıxarılan və ərazisi hüdudlarında bələdiyyənin mövcud olduğu digər ərazi vahidinin (şəhər, qəsəbə, kənd) ərazisinə birləşdirilən yaşayış məntəqəsinin hüdudlarında ləğv edilmiş bələdiyyənin mülkiyyəti və onunla bağlı hüquqlar (vəzifələr) hüquq varisliyi qaydasında müvafiq bələdiyyəyə keçdikdə, komissiyanın qərarı əsasında bələdiyyənin mülkiyyəti siyahıya alınır və siyahıya alınmış əmlak akt əsasında müvafiq bələdiyyəyə təhvil verilir.[2]

2.5. Qanuna əsasən ləğv edilərək mövcudluğuna xitam verilmiş bələdiyyənin əmlakı Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verildiyi hallarda komissiya bələdiyyənin mülkiyyətinin siyahıya alınması barədə qərar qəbul edir və kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti haqqında məlumat dərc etdirir. Bu müddət bələdiyyənin ləğvi haqqında məlumatın dərc edildiyi gündən etibarən iki aydan az ola bilməz. Komissiya kreditorları aşkar etmək və debitor borcunu almaq üçün tədbirlər görür, habelə bələdiyyənin ləğvi haqqında kreditorlara bildiriş göndərir.

2.6. Kreditorların tələblərinin irəli sürülməsi müddəti qurtardıqdan sonra komissiya ləğvetmə balansının tərtib edilməsi barədə qərar qəbul edir. Həmin balansa ləğv edilən bələdiyyənin əmlakının tərkibi, kreditorların irəli sürdükləri tələblərin siyahısı, habelə bu tələblərə baxılması nəticələri və məhkəmə mübahisələri haqqında məlumatlar daxil edilir.

2.7. Ləğv edilən bələdiyyədə olan pul vəsaiti kreditorların tələblərini ödəmək üçün yetərli deyildirsə, komissiyanın qərarı əsasında bələdiyyənin əmlakı (bələdiyyə torpaqları istisna olmaqla) Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında müvafiq qurumun vasitəsilə açıq hərracdan satıla bilər.

2.8. Ləğv edilmiş bələdiyyələrdə kreditorların tələbləri ödənildikdən sonra bələdiyyənin qalan əmlakı komissiyanın qəbul etdiyi qərar əsasında təhvil-təslim aktına əsasən qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verilir.

2.9. Bu Qaydaların 2.2 - 2.4-cü bəndlərində nəzərdə tutulan akt iki nüsxədə tərtib edilməklə, bir nüsxəsi yeni yaradılmış bələdiyyədə, digəri isə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində saxlanılır. Bu Qaydaların 2.6-cı bəndində nəzərdə tutulan ləğvetmə balansı, 2.7-ci bəndinə uyğun olaraq qəbul edilən qərar, habelə 2.8-ci bəndində nəzərdə tutulan təhvil-təslim aktı iki nüsxədə tərtib edilməklə, bir nüsxəsi Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində, digər nüsxəsi isə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində saxlanılır.

2.10. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Komissiyanın kargüzarlıq işini təşkil edir, Komissiyanın sədri isə onun üzvlərinin fəaliyyətini əlaqələndirir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 23 aprel 2010-cu il tarixli **74** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 364**)

**2.** 4 noyabr 2015-ci il tarixli **354** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1418)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 4 noyabr 2015-ci il tarixli **354** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1418)** ilə "Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası"nın 1.3-cü bəndindən "**Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin,**" sözləri çıxarılmışdır.

[2] 23 aprel 2010-cu il tarixli **74** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 364**) ilə təsdiq edilmiş "Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası"nın 2.4-cü bəndindən "**və inzibati ərazi dairələrinin**" sözləri çıxarılmışdır.

**Bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli məqsədi ilə komissiyaların yaradılması haqqında**

**Bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli məqsədi ilə komissiyaların yaradılması haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 sentyabr tarixli 147 nömrəli qərarı ilə təsdiq edilmiş «Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası»nın 1.2-ci bəndinin icrası məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (komissiyanın sədri), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin nümayəndələri, müvafiq yerli icra hakimiyyəti orqanının və bələdiyyənin (o cümlədən, birləşən, ayrılan və ləğv edilən bələdiyyələrin, habelə ərazi vahidi bir bələdiyyənin tərkibindən ayrılaraq digər bələdiyyənin tərkibinə daxil edildiyi hallarda həmin bələdiyyənin) hər birindən bir nümayəndə daxil edilməklə, «Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında» Azərbaycan Respublikasının 2009-cu il 29 may tarixli 826-IIIQ nömrəli Qanununa əsasən müvafiq komissiyalar yaradılsın.

2. Komissiyaların fərdi tərkibini təsdiq etmək üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və rayonların icra hakimiyyəti orqanları, habelə birləşən bələdiyyələr 5 gün müddətində öz nümayəndələri barədə təkliflərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti «Naxçıvan Muxtar Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında» Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli 839-IIIQ nömrəli Qanununun icrası məqsədi ilə bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyaların siyahısını və tərkibini təsdiq etsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A.RASİZADƏ**

Bakı şəhəri 26 noyabr 2009-cu il
№ 184

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 sentyabr tarixli, 147 nömrəli qərarı ilə təsdiq edilmiş "Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası"nda dəyişiklik edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 mart tarixli 803 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 sentyabr tarixli 147 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 9, maddə 751) ilə təsdiq edilmiş "Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət Qaydası"nın 2.4-cü bəndindən "və inzibati ərazi dairələrinin" sözləri çıxarılsın.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A. RASİZADƏ**

Bakı şəhəri, 23 aprel 2010-cu il
№ 74

## Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə əlavələrin həcminin müəyyən edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli, 156 nömrəli Fərmanının 1.26-cı bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə aşağıdakı əlavələr müəyyən edilsin:

ixtisası üzrə işləyən fəlsəfə doktorlarının (elmlər namizədlərinin) elmi dərəcəyə görə (elm sahələri göstərilməklə) vəzifə maaşlarına işlədiyi təhsil müəssisəsinin kateqoriyasından asılı olmayaraq — 60 manat;[1]

ixtisası üzrə işləyən elmlər doktorlarının elmi dərəcəyə görə vəzifə maaşlarına işlədiyi təhsil müəssisəsinin kateqoriyasından asılı olmayaraq — 100 manat;[2]

dosent elmi adına görə:

iş stajı 5 ildən 10 ilə qədər olduqda — 25 manat;

iş stajı 10 ildən 15 ilə qədər olduqda — 50 manat;

iş stajı 15 ildən 20 ilə qədər olduqda — 75 manat;

iş stajı 20 ildən artıq olduqda — 100 manat;

professor elmi adına görə:

iş stajı 5 ildən 10 ilə qədər olduqda — 30 manat;

iş stajı 10 ildən 15 ilə qədər olduqda — 60 manat;

iş stajı 15 ildən 20 ilə qədər olduqda — 90 manat;

iş stajı 20 ildən artıq olduqda — 120 manat.

Elmi dərəcəyə və elmi adlara görə müəyyən edilən əlavələr işçi tam ştat üzrə işlədikdə 100 faiz, yarımştat üzrə işlədikdə isə nəzərdə tutulan məbləğin 50 faizi həcmində ödənilir.

Elmi dərəcəyə və elmi adlara görə müəyyən edilən əlavələr əsas iş yerində 1,0 ştat və ya 1,0 stavka dərs yükünə, əvəzçilik üzrə əlavə iş yerlərində isə cəmi 0,5 ştat və ya 0,5 stavka dərs yükünə görə ödənilir.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 12 sentyabr tarixli, 210 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 9, maddə 858) ilə təsdiq edilmiş 2 nömrəli əlavə — "Dövlət büdcəsindən maliyyələşdirilən ali təhsil müəssisələrində çalışan işçilərin vəzifə maaşlarına tətbiq edilən əlavələr"in "Vəzifələrin adı" sütununun "Pedaqoji heyət" bölməsindən "Professor" "30", "60", "90", "120"və "Dosent" "25", "50", "75", "100" sözləri çıxarılsın.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A.RASİZADƏ**

Bakı şəhəri, 27 may 2010-cu il
№ 98

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 24 fevral 2014-cü il tarixli 58 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 02, maddə 212**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 24 fevral 2014-cü il tarixli 58 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 02, maddə 212**) ilə 1-ci hissəsinin ikinci abzasında "**30**" rəqəmi "**60**" rəqəmi ilə əvəz edilmişdir.

[2] 24 fevral 2014-cü il tarixli 58 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 02, maddə 212**) ilə üçüncü abzasında "**50**" rəqəmi "**100**" rəqəmi ilə əvəz edilmişdir.

**“Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası”nın təsdiq edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli 600 nömrəli Fərmanının 1.1.10-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

“Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

Bakı şəhəri, 30 dekabr 2012-ci il
№ 330

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2012-ci il 30 dekabr tarixli 330 nömrəli qərarı ilə**
**təsdiq edilmişdir**

## Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi

## Q A Y D A S I

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinə əsasən hazırlanmışdır və bu Qanuna uyğun olaraq sosial xidmət sahəsində dövlət sifarişlərinin (bundan sonra - dövlət sifarişləri) bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi məsələlərini tənzimləyir.

1.2. Dövlət sifarişləri bələdiyyələr, fiziki və hüquqi şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları tərəfindən bilavasitə həyata keçirilən sosial proqram, layihə və ya ayrı-ayrı tədbirlərdən ibarət olmaqla, sosial xidmət üzrə vəzifələrin yerinə yetirilməsinə yönəldilir.

1.3. Dövlət sifarişləri müsabiqə əsasında verilir. Bu zaman sifarişçi qismində dövlət orqanı, icraçı qismində bələdiyyələr, fiziki və hüquqi şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları çıxış edirlər.

1.4. Dövlət sifarişlərinin verilməsi bu Qaydanın əlavəsinə uyğun olaraq tərəflər arasında bağlanılmış sosial xidmət sifarişi üzrə müqavilə ilə rəsmiləşdirilir.

### 2. Dövlət sifarişlərini verən orqan

2.1. Dövlət sifarişlərini verən dövlət orqanı:

2.1.1. dövlət sifarişlərinin məqsədlərini, həyata keçirilmə şərtlərini müəyyən edir və dövlət sifarişinə ayrılacaq vəsaitin məbləğini hər il üzrə dövlət büdcəsinin tərtibi prosesində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırır;

2.1.2. müsabiqə komissiyasını formalaşdırır;

2.1.3. müsabiqənin əsas şərtlər toplusunu hazırlayır;

2.1.4. müsabiqə komissiyası tərəfindən müsabiqənin əsas şərtlər toplusu və müsabiqənin elanı təsdiq edildikdən sonra müsabiqə elanını dərc etdirir;

2.1.5. dövlət sifarişləri üzrə müsabiqənin keçirilməsini təmin edir;

2.1.6. dövlət sifarişlərini həyata keçirəcək icraçı təşkilatla müqavilə bağlayır;

2.1.7. dövlət sifarişlərinin müqavilə şərtlərinə uyğun olaraq yerinə yetirilməsinə nəzarət edir;

2.1.8. müqavilənin şərtlərinin pozulması hallarında qanunvericilikdə nəzərdə tutulan tədbirləri həyata keçirir.

### 3. Müsabiqədə iştirak üçün əsas şərtlər

3.1. Dövlət sifarişləri üzrə müsabiqədə iştirak etmək istəyən bələdiyyələr, fiziki və hüquqi şəxslər, o cümlədən qeyri-hökumət təşkilatlar üçün əsas şərtlər aşağıdakılardır:

3.1.1. müsabiqə elanında göstərilən sosial xidmət növü üzrə tam və ya qismən ixtisaslaşması;

3.1.2. sifarişçi ilə bağlanmış müqavilənin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığın, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin və etibarlılığının olması;

3.1.3. vergilər və digər icbari ödənişlərlə bağlı vaxtı keçmiş öhdəliklərinin olmaması.

### 4. Dövlət sifarişlərinin verilməsi ilə bağlı proseslərin təşkilinin əsas prinsip və formaları

4.1. Dövlət sifarişlərinin verilməsi ilə bağlı proseslərin təşkilində əsas prinsiplər aşağıdakılardır:

4.1.1. bələdiyyələrin, fiziki və hüquqi şəxslərin, o cümlədən qeyri-hökumət təşkilatlarının dövlət sifarişləri üzrə müsabiqədə iştirakının təmin edilməsi;

4.1.2. qanunvericiliyə əməl olunması, proseslərin şəffaflığı;

4.1.3. ədalətlilik və ayrı-seçkiliyin yolverilməzliyi;

4.1.4. maraqlı tərəflərin məlumatlara bərabər çıxışının təmin olunması;

4.1.5. sosial xidmət üzrə proqramların əhalinin rifah halının yaxşılaşmasına yönəldilməsi;

4.1.6. sosial tərəfdaşlıq və əməkdaşlığın təmin olunması;

4.1.7. sosial xidmətlərin göstərilməsi sahəsində təsisatların təşəkkül tapması və inkişafı;

4.1.8. sosial xidmətlərin və sifarişlərin yerinə yetirilməsi sahəsində rəqabət mühitinin formalaşdırılması və keyfiyyətin yüksəldilməsi.

4.2. dövlət sifarişləri üzrə müsabiqələr qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

### 5. Müsabiqənin keçirilməsi üzrə komissiyanın təşkili

5.1. Müsabiqənin keçirilməsi üçün sosial xidmət üzrə sifarişlərin profilinə uyğun olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində, Azərbaycan Respublikasının Təhsil Nazirliyində, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində və yerli icra hakimiyyəti orqanlarında müsabiqə komissiyası (bundan sonra - komissiya) yaradılır. Komissiyanın tərkibinə müvafiq dövlət orqanının mütəxəssisləri daxil edilirlər. Digər mərkəzi icra hakimiyyəti orqanları, qeyri-hökumət təşkilatları, yerli icra hakimiyyəti və bələdiyyələrə maraqlı olan məsələlərə baxıldıqda, onların nümayəndələri Komissiyanın iclaslarına dəvət edilirlər. Komissiyanın sədri dövlət orqanının vəzifəli şəxslərindən (rəhbəri istisna olmaqla) təyin olunur.

5.2. Komissiyanın tərkibini və iş qaydasını dövlət sifarişini verən dövlət orqanının rəhbəri (onun vəzifəsini icra edən şəxs) təsdiq edir.

### 6. Komissiyanın iş qaydası və əsas vəzifələri

6.1. Komissiya öz fəaliyyətini iclaslar vasitəsilə həyata keçirir. Komissiyanın iclasları komissiyanın sədri tərəfindən çağırılır.

6.2. Müsabiqə prosedurları zamanı və müsabiqənin nəticələrinə dair qərar çıxarılarkən komissiya üzvlərinin azı dörddə üçü iştirak etməlidir. Komissiyanın qərarları yığıncaqda iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər bölündükdə, komissiya sədrinin səsi həlledici hesab olunur. Qərar komissiyanın bütün üzvləri tərəfindən imzalanır.

6.3. Komissiya müsabiqənin nəticələrinə dair qərarın qəbulu məqsədi ilə keçirdiyi iclaslara ekspertləri və sifariş verən orqanın səsvermə hüququ olmayan digər nümayəndələrini dəvət edə bilər.

6.4. Komissiya ictimai əsaslarla fəaliyyət göstərir.

6.5. Komissiyanın əsas vəzifələri aşağıdakılardır:

6.5.1. komissiyanın fəaliyyətində tam aşkarlığı təmin etmək;

6.5.2. dövlət sifarişləri üzrə müsabiqəyə təqdim olunmuş təkliflərin qiymətləndirilməsinin obyektiv meyarlarını hazırlamaq;

6.5.3. sifarişçi tərəflə müsabiqə şərtlərini razılaşdırmaq;

6.5.4. müsabiqənin nəticələrinin dərc olunmasını təmin etmək.

## 7. Müsabiqənin keçirilməsi qaydaları

7.1. Müsabiqə başlayanadək komissiya tərəfindən müsabiqə haqqında məlumat hazırlanır və həmin məlumatlar kütləvi informasiya vasitələrində, ərazi üzrə yerli kütləvi informasiya vasitələrində, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin rəsmi internet saytında, həmçinin müsabiqənin keçiriləcəyi dövlət orqanının inzibati binasının qarşısında yerləşən elan lövhəsində aşağıdakılar göstərilməklə dərc olunur:

7.1.1. maliyyələşdiriləcək layihənin texniki icmalı, məqsədi və fəaliyyət dairəsi;

7.1.2. uyğun namizədlərin təsviri;

7.1.3. müsabiqədə iştirak etmək üçün təqdim ediləcək sənədlərin siyahısı, bu sənədlərə aid-tələblər;

7.1.4. müsabiqədə iştirak etmək üçün qeydiyyatın başlanma və başaçatma vaxtı, həmçinin - müsabiqənin keçirilmə tarixi və yeri;

7.1.5. sənəd qəbulu məntəqələrinin ünvanı (otaq, telefon nömrəsi, qəbul saatları göstərilməklə);

7.1.6. müsabiqənin nəticələrinin rəsmiləşdirilməsi qaydası.

7.2. Müsabiqə aşağıdakı qaydada keçirilir:

7.2.1. maliyyələşdiriləcək layihənin məqsədi, fəaliyyət istiqamətləri və bunlar üçün ayrılacaq vəsaitin məbləği komissiya üzvləri tərəfindən elan edilir;

7.2.2. müsabiqə iştirakçılarının təqdim etdikləri zərflər daxil olduqları ardıcıllıqla açılır və təkliflərin qiymətləndirilməsi aparılır;

7.2.3. qalib gəlmiş təklif elan edilir;

7.2.4. müsabiqə başa çatdıqdan sonra, komissiya müsabiqənin yekunlarını protokollaşdırır. Protokol iclasda iştirak edən komissiya üzvlərinin tərkibi, müsabiqənin şərtləri, iştirakçıların təklifləri və müsabiqənin qalibi haqqında məlumat göstərilməklə, iki nüsxədə tərtib edilir, komissiya üzvləri və müsabiqənin qalibi tərəfindən imzalanır və təsdiq edilmək üçün dövlət orqanına təqdim olunur. Qəbul olunmuş qərarla razı olmayan komissiya üzvləri öz mövqelərini yazılı şəkildə əsaslandırır və o, imzalanmış protokola əlavə olunur. Müsabiqənin qalibi olmuş icraçı təşkilat müsabiqənin yekunları haqqında protokolu imzalamadıqda, müsabiqə baş tutmamış hesab olunur.

7.3. Protokol 5 (beş) iş günü müddətində dövlət orqanı tərəfindən təsdiq edilir. Onun bir nüsxəsi müsabiqənin qalibinə təqdim olunur və dövlət sifarişləri üzrə müqavilənin bağlanılması hüququnu təsdiq edən sənəd kimi qəbul edilir.

7.4. Protokol dövlət orqanı tərəfindən təsdiq edildikdən sonra, 20 (iyirmi) gündən və ya elanda göstərilən başqa müddətdən gec olmayaraq dövlət orqanı və icraçı təşkilat arasında dövlət sifarişləri üzrə bu Qaydanın 1.4-cü bəndinə uyğun olaraq müqavilə bağlanılır. Müqavilənin şərtləri, dövlət orqanı və icraçı təşkilatın (tərəflərin) hüquq və vəzifələri, həmçinin müqavilənin şərtlərinin pozulmasının nəticələri müqavilədə müəyyən edilir.

7.5. Müsabiqənin yekunları haqqında məlumat kütləvi informasiya vasitələrində dərc edilir və dövlət orqanının rəsmi internet saytında yerləşdirilir.

7.6. Müsabiqə baş tutmadıqda, komissiyanın iclasında onun təkrar keçirilməsi və keçirilmə müddətinin təyin edilməsi barədə qərar qəbul edilir.

**8. Dövlət sifarişlərinin yerinə yetirilməsinə nəzarət**

Dövlət sifarişləri ilə bağlı müqavilə öhdəliklərinin yerinə yetirilməsinə nəzarəti sifarişi verən orqan həyata keçirir. Müqavilə öhdəlikləri yerinə yetirilmədiyi və yaxud tam və keyfiyyətlə yerinə yetirilmədiyi halda sosial xidmət üzrə sifarişi verən orqan icraçıya qarşı sosial xidmət müqaviləsində nəzərdə tutulmuş sanksiyanın tətbiq olunmasına dair qərar qəbul edir.

**9. Mübahisələrə baxılma qaydaları**

Dövlət sifarişlərinin yerinə yetirilməsi ilə bağlı müqavilədən irəli gələn öhdəliklərin yerinə yetirilməməsi və ya maddi zərərin ödənilməsi ilə bağlı mübahisələrə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmələr tərəfindən baxılır.

"Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi" Qaydasına **əlavə**

**Sosial xidmət sifarişi üzrə müqavilənin**

**N Ü M U N Ə S İ**

Bu müqavilə "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinə uyğun olaraq sosial xidmət sahəsində dövlət sifarişlərinin verilməsi zamanı tərtib olunur.

**1. Müqavilənin tərəfləri**

Bu müqavilə bir tərəfdən bundan sonra "Sifarişçi" adlandırılacaq

______________________________________________________________________________

(dövlət orqanının adı, onun səlahiyyətli şəxsinin vəzifəsi, adı ,soyadı və atasının adı)

______________________________________________________________________________

və digər tərəfdən bundan sonra "İcraçı" adlandırılacaq

______________________________________________________________________________

(bələdiyyələr, fiziki və hüquqi şəxslər, qeyri-hökumət təşkilatlarının adı, onun səlahiyyətli şəxsinin vəzifəsi, adı ,soyadı və atasının adı)

______________________________________________________________________________

arasında________________________________tarixdə________________________________bağlanmışdır.

(gün, ay, il) (imzalandığı yer)

**2. Müqavilənin predmeti**

2.1. Tərəflər təsdiq edirlər ki, Sifarişçi ________________________________________________

( xidmətlərin adı)

İcraçının xidmət göstərilməsi barədə təklifini qəbul etmişdir.

2.2. İcraçı müqavilədə nəzərdə tutulmuş şərtlər əsasında müqavilədə nəzərdə tutulan________________________ xidmətlərin göstərilməsini öhdəsinə götürür.
(xidmətin adı)

Göstərilmiş xidmətlər Sifarişçinin sifarişinə və bu müqavilədə göstərilmiş şərtlərə uyğun olmadıqda, İcraçı aşkar olunan çatışmazlıqların müqavilənin xüsusi şərtlərində göstərilmiş qaydada aradan qaldırılmasına təminat verir.

2.3. Sifarişçi müqavilədə nəzərdə tutulmuş şərtlər əsasında xidmətlərin yerinə yetirilməsinə dair hesabatların İcraçıdan qəbul edilməsini və dəyərinin ödənilməsini öhdəsinə götürür.

2.4. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, müqavilənin məbləği dəyişilməz qalır.

2.5. Aşağıdakı sənədlər bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunur:

2.5.1. maliyyələşdiriləcək layihənin məqsədi, texniki icmalı və fərdi iş planı;

2.5.2. müqavilənin xüsusi şərtləri (müqavilənin şərtlərini dəqiqləşdirən sənəd);

2.5.3. İcraçının xidmətlə bağlı təklifini təsdiq edən əsaslandırıcı sənədlər.

## 3. Tətbiq olunan hüquq

3.1. Müqavilənin müddəalarının şərhi Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq aparılmalıdır. Müqavilənin icrası ilə əlaqədar tətbiq olunan əlavə hüquqi normalar və sənədlər müqavilənin xüsusi şərtlərində göstərilməlidir.

3.2. Müqavilə üzrə göstərilən xidmətlərin nəticələri, hesabatlar və İcraçı tərəfindən hazırlanan digər sənədlər Sifarişçinin mülkiyyəti hesab olunur və onun sərəncamında qalır. İcraçı bu sənədlərin sürətini özündə saxlaya bilər.

## 4. Müqavilənin dili

Müqavilə Azərbaycan Respublikasının dövlət dilində tərtib olunur.

## 5. Tərəflərin öhdəlikləri

5.1. İcraçı:

5.1.1. sosial xidmətlərin göstərilməsi üzrə müqavilədə nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi barədə sosial xidmətin müddətindən asılı olaraq (6 ayadək müddətli müqavilələr üzrə aylıq, 1 ilədək müddətli müqavilələr üzrə rüblük) Sifarişçiyə aylıq və ya rüblük hesabat təqdim etməlidir;

5.1.2. müqavilənin icrası ilə bağlı olan bütün şərtləri, tələbləri və buna aid məlumatları öyrəndikdən sonra müqaviləni imzalayır. İcraçının həmin şərtləri, tələbləri və məlumatları bilməməsi onu müqavilə üzrə götürdüyü öhdəliklərdən azad etmir.

5.2. Sifarişçi:

5.2.1. müqavilə üzrə göstərilmiş xidmətlərə dair hesabatların (aşkar olunan çatışmazlıqların İcraçı tərəfindən aradan qaldırılmasını nəzərə almaqla) qəbul edilməsini və sosial xidmətin göstərilməsi ilə əlaqədar ödəmələrin vaxtında aparılmasını öhdəsinə götürür;

5.2.2. müqavilənin xüsusi şərtlərində nəzərdə tutulmuş hüquqi və təşkilati məsələlərin həllini təmin edir;

5.2.3. müqavilənin icrası ilə bağlı bütün məlumatların dəqiqliyinə və İcraçıya vaxtında

çatdırılmasına təminat verir.

## 6. İcraçının ixtisasına dair tələblər

6.1. İcraçı xidmətlə bağlı təklifində təqdim olunan və Sifarişçi tərəfindən təsdiq edilmiş siyahıya uyğun olaraq işçilərin müqavilənin yerinə yetirilməsində iştirakını təmin edir.

Sifarişçi müqavilənin icrası müddətində dəyişdirilən işçilərin siyahısını (ixtisas uyğunluğunu və səriştəsini) yenidən təsdiq edir.

6.2. Sifarişçi səbəbini göstərməklə, İcraçının hər hansı işçisinin müqavilənin icrasından uzaqlaşdırılmasını tələb edərsə, İcraçı 3 (üç) iş günü müddətində bu tələbi müqavilənin icrasına heç bir təsirin olmaması şərtiləyerinə yetirməlidir.

## 7. Müqavilə üzrə ödəmələr

7.1. Müqavilə üzrə ödəmələr (o cümlədən avans ödənişi) Sifarişçi tərəfindən müqavilənin əsas şərtlər toplusunda və müqavilənin xüsusi şərtlərində müəyyənləşdirilmiş qaydada və məbləğdə, İcraçının təqdim etdiyi sənədlər (qaimələr, xidmətlərin göstərilməsinə dair təhvil-təslim aktları, bank zəmanəti) əsasında, ən qısa müddət ərzində, lakin 30 (otuz) gündən gec olmamaq şərtilə aparılır.

7.2. Sifarişçi xidmətin göstərilməsi üçün İcraçıya müqavilənin xüsusi şərtlərində göstərilən məbləğdə avans ödəyə bilər. Avansın alınması üçün İcraçı müqavilənin əsas şərtlər toplusunda müəyyənləşdirilmiş qaydada Sifarişçiyə avans ödənişinin təminatını təqdim edir. Avans ödənişi üçün verilən təminat avans qaytarılana qədər qüvvədə qalır, onun məbləği isə görülən işlərin müqabilində azaldılır. İcraçı avansı yalnız nəzərdə tutulmuş məqsəd üçün istifadə edə bilər və avansın göstərilən məqsədlər üçün istifadə olunmasını müvafiq sənədlərlə əsaslandırmalı və müvafiq sənədlərin surətlərini Sifarişçiyə təqdim etməlidir.

7.3. Müqavilə İcraçı və ya Sifarişçi tərəfindən ləğv olunarsa, tərəflər müqavilənin xüsusi şərtlərində göstərildiyi qaydada ödənişlərin (o cümlədən avans və digər ödənişlərin) məbləğini müəyyənləşdirən və müqavilənin icrasını təsdiq edən sənədlər tərtib edirlər. Tərtib olunmuş sənədlər əsasında müəyyən edilmiş fərq 15 (on beş) gün müddətində ödənilir.

## 8. Müqavilənin icrası

8.1. İcraçı müqavilədə göstərilmiş müddət ərzində müqaviləni imzalayır. İcraçının tələb olunan müddət ərzində xidmət müqaviləsini imzalamaması onun öz öhdəliklərini icra edə bilməməsi kimi qiymətləndirilir. İcraçı müqavilə üzrə öhdəlikləri yerinə yetirə bilmədiyi halda, Sifarişçiyə dəyən ziyanı mülki qanunvericiliklə müəyyən edilmiş qaydada ödəməlidir.

8.2. Müqavilə Sifarişçi və İcraçı tərəfindən imzalandığı andan qüvvəyə minir.

8.3. Müqavilənin icrası onun xüsusi şərtlərində göstərilmiş müddət ərzində və Sifarişçi tərəfindən təsdiq olunmuş iş planı əsasında həyata keçirilir. İş planı yalnız tərəflərin yazılı razılığı əsasında dəyişdirilə bilər. Bu hallarda İcraçının müqavilə üzrə öhdəlikləri və müqavilənin icra müddəti dəyişmir.

## 9. Müqavilənin icrasına nəzarət

Sifarişçi (və ya onun nümayəndələri) müqavilənin əsas şərtlər toplusunda nəzərdə tutulmuş qaydada, heç bir əlavə xərc çəkmədən, müqavilənin şərtlərinin icrasına nəzarət etmək hüququna malikdir.

## 10. Müqavilənin icrası müddətində çatışmazlıqların aradan qaldırılması

10.1. Müqavilənin icrası müddətində Sifarişçi aşkar olunmuş çatışmazlıqlar haqqında İcraçıya dərhal bildiriş verməlidir. Bildirişdə çatışmazlıqların aradan qaldırılması üçün məsuliyyət müddəti

göstərilməlidir.

10.2. İcraçı çatışmazlıqlar haqqında bildirişi aldıqdan sonra həmin çatışmazlıqları bildirişdə müəyyən edilmiş məsuliyyət müddəti ərzində aradan qaldırır.

10.3. İcraçı tərəfindən məsuliyyət müddəti ərzində çatışmazlıqlar aradan qaldırılmırsa, Sifarişçi həmin çatışmazlıqların aradan qaldırılması üçün tələb olunan məbləği hesablayır və İcraçıya ödəniləcək məbləğdən çıxır.

**11. Cərimələr**

11.1. İcraçı müqaviləni müəyyən olunmuş qaydada və müddət ərzində yerinə yetirmədikdə (gecikdirildikdə), Sifarişçi digər hüquqlara ziyan vurmadan müqavilənin xüsusi şərtlərində nəzərdə tutulmuş cərimə sanksiyaları tətbiq edir. Cərimələrin məbləğinin yuxarı həddi müqavilənin xüsusi şərtlərində göstərilir və bu məbləğ müqavilənin qiymətinin 10 faizindən çox olmamalıdır. Cərimələrin məbləği müəyyənləşdirilmiş maksimuma çatdıqdan sonra Sifarişçi müqaviləni birtərəfli qaydada ləğv edir.

11.2. Sifarişçi müqavilədə müəyyən olunmuş müddət ərzində və müqavilənin xüsusi şərtlərində göstərilmiş qaydada ödəmələri aparmasa, İcraçı müqavilənin xüsusi şərtlərində müəyyən edilmiş məbləğdə cərimə sanksiyaları tətbiq edə bilər.

**12. Müqavilənin ləğv edilməsi**

12.1. Müqavilənin şərtlərinin əsaslı pozulmasına yol verilərsə ( bu müqavilənin 11.1-ci bəndi istisna olmaqla), Sifarişçi və ya İcraçı qarşı tərəfə 30 (otuz) gün əvvəl yazılı xəbərdarlıq etmək şərtilə, müqaviləni bütövlükdə və ya qismən ləğv edə bilər.

12.2. Aşağıdakı pozuntular əsaslı sayılır:

12.2.1. İcraçının müqavilədə nəzərdə tutulmadığı hallarda və ya Sifarişçi ilə razılaşmadan 5 (beş) gündən artıq müddətdə işləri dayandırması;

12.2.2. Sifarişçinin müqavilənin pozulmasına səbəb ola biləcək çatışmazlıqlar haqqında yazılı bildirişinə baxmayaraq, İcraçının təqdim edilmiş sənəd əsasında 10 (on) gün müddətində tədbir görməməsi;

12.2.3. müqavilənin xüsusi şərtlərində göstərilən qaydada vurulmuş ziyanların maksimum həddi aşması;

12.2.4. “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 15.2-ci maddəsinin tələblərinin sosial işçi (sosial xidmətçi) tərəfindən pozulması;

12.2.5. İcraçı tərəfindən tərəflərin müqavilədə nəzərdə tutulmuş digər öhdəliklərinin yerinə yetirilməməsi.

**13. Mübahisəli məsələlərin həlli**

13.1. Tərəflər müqavilə üzrə öz aralarında yaranmış mübahisəli məsələləri və ya qeyri-müəyyənlikləri danışıqlar və qarşılıqlı güzəştlər yolu ilə həll etməlidirlər;

13.2. mübahisəli məsələlərin və qeyri-müəyyənliklərin həlli danışıqlar yolu ilə 30 gün müddətində mümkün olmadıqda, bu məsələlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin şərtlərinə əsasən həll edilməlidir.

Sifarişçi ______________________________________________________

(səlahiyyətli şəxsin vəzifəsi, adı, soyadı və atasının adı)

İmza_______________

M.Y.

İcraçı ________________________________________________________________

(səlahiyyətli şəxsin vəzifəsi, adı, soyadı və atasının adı)

İmza________________

M.Y.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 12 yanvar tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 1 may tarixli 350-IVQD nömrəli qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 647 nömrəli fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 12 yanvar tarixli 3 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 74) ilə təsdiq edilmiş "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması Qaydaları"nın 4-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"4. Bələdiyyələrin tabeliyində olan müəssisə və təşkilatlar tərəfindən "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz fəaliyyətinə dair tərtib edilmiş rüblük və illik maliyyə hesabatları qanunla müəyyən edilmiş qaydada və hallarda müvafiq orqanlara təqdim olunur və dərc etdirilir.".

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

Bakı şəhəri, 20 iyun 2013-cü il
№ 148

**"Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə əlavələrin həcminin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli 98 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Elmi dərəcələrə görə vəzifə maaşlarına əlavələrin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 14 sentyabr tarixli 3142 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə əlavələrin həcminin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli 98 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 475) 1-ci hissəsinin ikinci abzasında "30" rəqəmi "60" rəqəmi ilə, üçüncü abzasında "50" rəqəmi "100" rəqəmi ilə əvəz edilsin.

2. Bu qərar 2013-cü il sentyabrın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

Bakı şəhəri, 24 fevral 2014-cü il
№ 58

**Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamə"nin 23-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş bildirişin, səkkizinci cümləsində nəzərdə tutulmuş sorğunun və bu sorğu əsasında verilən məlumatların məzmununun müəyyən edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 14 fevral tarixli 906-IVQD nömrəli Qanununun tətbiqi və "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 696 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 6 mart tarixli 120 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamə"nin 23-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş bildirişin, səkkizinci cümləsində nəzərdə tutulmuş sorğunun və bu sorğu əsasında verilən məlumatların məzmunu təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

Bakı şəhəri, 3 iyul 2014-cü il
№ 219

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 iyul tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmişdir**

## B İ L D İ R İ Ş

-----------------------------------
(bildirişin tarixi və nömrəsi)

______________________________________________________________________________
_______________
(bildirişi göndərən bələdiyyənin adı, ünvanı)

______________________________________________________________________________
_______________
(bildiriş göndərilən şəxsin soyadı, adı, atasının adı, yaşadığı ünvan)

___________ bələdiyyəsi fərdi yaşayış evinin tikintisi üçün ________ ha torpaq sahəsinin mülkiyyətə ayrılması barədə ___________ tarixli _______ nömrəli qərar qəbul etmişdir.

Torpaq sahəsinin qiyməti bazar qiyməti nəzərə alınmaqla ________ manat müəyyən edilmişdir.

Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamə"nin 23-cü maddəsinin tələbinə əsasən, bələdiyyə ilə ərizəçi arasında 60 gündən gec olmamaqla, alqı-satqı müqaviləsi bağlanılmalı və torpağın dəyəri bələdiyyənin bank hesabına_____________________________________________________ödənilməlidir.
(bank hesabının rekvizitləri)

Qeyd edilən müddətdə müqavilə bağlanmadıqda və torpağın dəyəri ödənilmədikdə, bu torpağın mülkiyyətə ayrılması barədə bələdiyyənin __________tarixli ______ nömrəli qərarı ləğv edilir.

Bələdiyyənin sədri ________________________________________
(soyadı, adı, atasının adı, imzası)

"_____" ______________20____ il

M.Y.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 iyul tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmişdir**

_______________________ rayon (şəhər, qəsəbə, kənd) bələdiyyəsi

**S O R Ğ U**

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ________saylı Ərazi İdarəsinə

_________________________________
(sorğunun tarixi və nömrəsi)

Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamə"nin 23-cü maddəsinə əsasən, aşağıda qeyd olunan torpaq sahəsinin bazar qiymətinin müəyyən edilməsi məqsədi ilə bələdiyyə tərəfindən satılan torpaq sahəsini 100 metrədək əhatə edən ərazi üzrə, həmin ərazidə torpaqla bağlı bazar mövcud olmadıqda satılan torpaq sahəsini 250 metrədək əhatə edən ərazi üzrə, həmin ərazidə torpaqla bağlı bazar mövcud olmadıqda satılan torpaq sahəsini 500 metrədək əhatə edən ərazi üzrə uyğun torpaq sahəsinin son üç ay ərzində notariat qaydasında təsdiq edilmiş alqı-satqı müqavilələrində göstərilmiş 3 ən yüksək qiyməti barədə məlumat sorğu olunur.

1. _________rayon (şəhər, qəsəbə, kənd) ərazisində yerləşən ______________________ bələdiyyəsinə məxsus _____________təyinatlı, __________________________________________________

_____________________________________________________________ torpaq sahəsi.
(döngə nöqtələrinin koordinatları və onlar arasındakı məsafələr)

**Qeyd.** Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamə"nin 23-cü maddəsinə əsasən, məlumat 3 gün müddətində bələdiyyəyə göndərilməlidir.

Bələdiyyənin sədri ________________________________________
(soyadı, adı, atasının adı, imzası)

"_____" ______________20____ il

M.Y.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 iyul tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmişdir**

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin _______saylı Ərazi İdarəsi

**Sorğu əsasında verilən məlumatın məzmunu**

_______________rayon (şəhər, qəsəbə, kənd) bələdiyyəsinə

___________________________________
(məlumatın tarixi və nömrəsi)

Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamə"nin 23-cü maddəsinə əsasən, torpaq sahəsinin bazar qiymətinin müəyyən edilməsi məqsədi ilə müvafiq ərazi üzrə uyğun torpaq sahəsinin son üç ay ərzində notariat qaydasında təsdiq edilmiş alqı-satqı müqavilələrində göstərilmiş 3 ən yüksək qiyməti barədə məlumatın verilməsi ilə əlaqədar 2014-cü il "____" tarixli ____ nömrəli sorğunuza Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin _____saylı Ərazi İdarəsində baxılmışdır.

Bununla əlaqədar bildiririk ki, həmin torpaq sahəsinə uyğun torpaq sahələrinin notariat qaydasında təsdiq edilmiş alqı-satqı müqavilələrində göstərilmiş qiymətləri üç ay ərzində aşağıdakı kimi olmuşdur:

| Sıra №-si | Ünvanı | Koordinatları | Sahəsi | Təyinatı | Müqavilənin tarixi | Müqavilənin qiyməti | Torpaq sahəsini 100/250/500 metrədək əhatə edən ərazi üzrə |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |

Daşınmaz Əmlakın Dövlət Reyestri
Xidmətinin ______________saylı Ərazi İdarəsinin
rəisi ____________________________________
(soyadı, adı, atasının adı, imzası)

“_____”__________ 20____ il

M.Y

**Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihəsi ilə əlaqədar bələdiyyə mülkiyyətində olan torpaqların dövlətin mülkiyyətinə və ya icarəsinə verilməsi ilə bağlı alğı-satqı və ya icarə müqavilələrinin bağlanmasını həyata keçirən orqanın müəyyən edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 30 sentyabr tarixli 1051-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 oktyabr tarixli 293 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihəsi ilə əlaqədar bələdiyyə mülkiyyətində olan torpaqların dövlətin mülkiyyətinə və ya icarəsinə verilməsi ilə bağlı alğı-satqı və ya icarə müqavilələrinin bağlanmasını həyata keçirən orqan qismində yerli icra hakimiyyəti orqanları müəyyən edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

Bakı şəhəri, 25 noyabr 2014-cü il
№ 380

**“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununun 52-2-ci maddəsinin 3-cü hissəsinin ikinci abzasına uyğun olaraq, protokolun formasına və tərtibinə dair tələblər”in təsdiq edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 28 oktyabr tarixli 1103-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 857 nömrəli Sərəncamının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununun 52-2-ci maddəsinin 3-cü hissəsinin ikinci abzasına uyğun olaraq, protokolun formasına və tərtibinə dair tələblər” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

Bakı şəhəri, 3 fevral 2015-ci il
№ 26

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2015-ci il 3 fevral tarixli 26 nömrəli qərarı ilə**
**TƏSDİQ EDİLMİŞDİR**

**_______________ rayonu (şəhəri) ______________ bələdiyyəsinin ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların yığıncaqlarının**

**PROTOKOLU № ______**

**__________ rayonu (şəhəri, kəndi)** **“___” __________ 20_____ il**

Bələdiyyənin ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların sayı ____ nəfər

İştirak edənlərin sayı ____ nəfər _____(faizlə)

**GÜNDƏLİK MƏSƏLƏ**

__________ rayonu (şəhəri) __________ bələdiyyəsi tərəfindən “___” ______20_______ il ərzində görülmüş işlər haqqında, o cümlədən yerli büdcəyə daxil olan maliyyə vəsaitlərinin (təyinatı, məqsədi və dəqiq məbləği manatla) və bələdiyyə mülkiyyətinin (torpağın kateqoriyası, məqsədli təyinatı və digər daşınmaz və daşınar əmlak göstərilməklə) istifadəsi haqqında hesabatın müzakirəsi.

__________ bələdiyyəsi tərəfindən “___” ______20____ il ərzində görülmüş işlər, o cümlədən yerli büdcəyə daxil olan maliyyə vəsaitlərinin (təyinatı, məqsədi və dəqiq məbləği manatla) və bələdiyyə mülkiyyətinin (torpağın kateqoriyası, məqsədli təyinatı və digər daşınmaz və daşınar əmlak göstərilməklə) istifadəsi haqqında hesabatı təqdim etdilər:

1. Bələdiyyə sədri ____________________________________________________________
(adı, soyadı, atasının adı)
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

2. Bələdiyyənin daimi komissiyalarının sədrlərinin məlumatları dinlənildi.
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

__________ bələdiyyəsi tərəfindən "___" ______20____ il ərzində görülmüş işlər, o cümlədən yerli büdcəyə daxil olan maliyyə vəsaitlərinin (təyinatı, məqsədi və dəqiq məbləği manatla) və bələdiyyə mülkiyyətinin (torpağın kateqoriyası, məqsədli təyinatı və digər daşınmaz və daşınar əmlak göstərilməklə) istifadəsi haqqında hesabatın təsdiq edilməsi üçün səsvermə keçirilir.

Səsvermənin nəticəsi:

lehinə - ____ nəfər;
əleyhinə - ____ nəfər;
bitərəf - ____ nəfər.

Səsvermənin nəticəsini nəzərə alaraq yığıncaq

**QƏRARA ALIR:**

1. __________ rayonu (şəhəri) __________ bələdiyyəsinin "___" ______20____ il ərzində görülmüş işlər, o cümlədən yerli büdcəyə daxil olan maliyyə vəsaitlərinin (təyinatı, məqsədi və dəqiq məbləği manatla) və bələdiyyə mülkiyyətinin (torpağın kateqoriyası, məqsədli təyinatı və digər daşınmaz və daşınar əmlak göstərilməklə) istifadəsi haqqında hesabatı qənaətbəxş (qeyri-qənaətbəxş) hesab edilsin.

2. Yığıncaqda iştirak edənlərin yarısından çoxu hesabat dövründə bələdiyyənin fəaliyyətini qeyri-qənaətbəxş hesab edilməsinin "lehinə" səs verdikdə, yığıncağın protokolunun surəti Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinə təqdim edilsin.

**İclasın sədri** ______________________________
(adı, soyadı, atasının adı)

**İclasın katibi** ______________________________
(adı, soyadı, atasının adı)

**Bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli məqsədi ilə komissiyaların yaradılması haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 977-IVQ nömrəli qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 iyul tarixli 638 nömrəli sərəncamına əsasən Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

1. Bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (komissiyanın sədri), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yerli nümayəndələri, müvafiq yerli icra hakimiyyəti orqanının və bələdiyyənin (o cümlədən, birləşən və ləğv edilən bələdiyyələrin) hər birindən bir nümayəndə daxil edilməklə, "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 977-IVQ nömrəli qanununa əsasən müvafiq komissiyalar yaradılsın.

2. Komissiyaların fərdi tərkibinin təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və rayon icra hakimiyyəti orqanları, habelə birləşən bələdiyyələr 5 gün müddətində öz nümayəndələri barədə təkliflərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər.

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

Bakı şəhəri, 13 mart 2015-ci il
№ 66

## “Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası”nın təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Bələdiyyə qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 13 fevral tarixli 1196-IVQD nömrəli qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 aprel tarixli 500 nömrəli fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur RASİ-ZADƏ**

Bakı şəhəri, 13 oktyabr 2015-ci il
№ 324

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 oktyabr tarixli 324 nömrəli qərarı ilə təsdiq edilmişdir**

## Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Bələdiyyə qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 5-1-ci maddəsinin səkkizinci hissəsinə əsasən hazırlanmışdır və bələdiyyə qulluğuna qəbul üçün müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi qaydasını müəyyən edir.

1.2. Müsabiqə hər bir namizədin bilik səviyyəsinin, peşə hazırlığının, ümumi dünyagörüşünün, bələdiyyə icra aparatının struktur bölmələrində müvafiq vəzifələrə yararlı olmasının müəyyən edilməsi məqsədi ilə aşkarlıq şəraitində şəffaf üsullarla keçirilir.

1.3. On altı yaşına çatmış, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq, müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən, habelə bələdiyyə qulluğuna qəbul edilmək üçün qanunvericiliklə müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları bələdiyyə qulluğuna qəbul edilmək üçün müsabiqəyə buraxılırlar.

### 2. Müsabiqənin elan edilməsi

2.1. Bələdiyyə orqanlarında vakant vəzifələr üzrə bələdiyyə qulluğuna qəbul üçün bələdiyyənin müsabiqə komissiyası (bundan sonra - müsabiqə komissiyası) müsabiqə elan edir. Elan bələdiyyənin

rəsmi internet saytında (olduğu halda) və digər kütləvi informasiya vasitələrində verilir, habelə bələdiyyənin binasında xüsusi lövhələrdə yerləşdirilir. Elanda sənədlərin qəbul edildiyi yer, sənədləri qəbul edən şəxsin soyadı, adı, atasının adı və əlaqə telefonları, vakant vəzifələrin adı, bu vəzifəni tutmaq istəyən vətəndaşlar qarşısında qoyulan tələblər, o cümlədən bələdiyyə qulluğunda işləmək üçün lazım olan şərtlər göstərilir.

## 3. Sənədlərin qəbulu

3.1. Bələdiyyə orqanlarına qulluğa qəbul olunmaq üçün müsabiqədə iştirak etmək istəyən şəxs müsabiqə elan edilən gündən etibarən 30 (otuz) gün müddətində bələdiyyənin icra aparatına aşağıdakı sənədləri təqdim etməlidir:

3.1.1. vahid forma üzrə ərizə (1 nömrəli əlavə);

3.1.2. kadrlar uçotunun şəxsi vərəqəsi;

3.1.3. tərcümeyi-hal;

3.1.4. təhsil haqqında sənədin surəti;

3.1.5. şəxsiyyət vəsiqəsinin surəti;

3.1.6. əmək kitabçasının təsdiq edilmiş surəti (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla);

3.1.7. sağlamlıq barədə arayış;

3.1.8. hərbi biletin təsdiq edilmiş surəti, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ vardırsa və ya azad edilmişdirsə, müvafiq arayış;

3.1.9. 3x4 sm ölçüdə iki ədəd rəngli fotoşəkil.

3.2. Müsabiqədə iştirak etmək istəyən şəxs tərəfindən təqdim edilmiş sənədlər bu Qaydanın 3.1.1-3.1.9-cu yarımbəndlərində nəzərdə tutulmuş tələblərə uyğun olmadıqda, natamam olduqda və ya onlarda yanlış məlumatlar aşkar edildikdə, həmin şəxsə sənədləri təqdim etdiyi gündən 5 (beş) iş günü müddətində məlumat verilir. Müsabiqədə iştirak etmək istəyən şəxs müsabiqə ilə bağlı sənədlərin qəbulu başa çatanadək həmin çatışmazlıqları aradan qaldırdıqda, müsabiqədə iştirak hüququnu əldə edir.

## 4. Müsabiqənin keçirilməsi

4.1. Sənədlərin qəbulu başa çatdıqdan sonra 30 (otuz) gün müddətində müsabiqə komissiyası tərəfindən müsabiqə keçirilir.

4.2. Bələdiyyə qulluğuna qəbulun müsabiqə əsasında keçirilməsi üçün 5 (beş) nəfər bələdiyyə üzvü və qulluqçusundan ibarət müsabiqə komissiyası yaradılır. Müsabiqə keçirilən gün müsabiqə başlamazdan əvvəl müsabiqəyə buraxılan namizədlərin siyahısı və şəxsi işləri müsabiqə komissiyasına təqdim edilir. Müsabiqə komissiyasının sədri siyahıda göstərilmiş namizədləri elan edir.

4.3. Müsabiqə komissiyasının üzvü namizədlərdən hər hansı biri ilə yaxın qohumluq, şəxsi yaxınlıq, asılılıq münasibətində olduqda və yaxud obyektiv qiymətləndirməyə mənfi təsir edə bilən hallar mövcud olduqda, özü-özünə etiraz etməlidir. Eyni qaydada namizəd belə əsaslar olduqda, müsabiqə başlamazdan əvvəl müsabiqə komissiyasının hər hansı üzvünə (üzvlərinə) etiraz edə bilər.

4.4. Müsabiqə müsabiqə komissiyası tərəfindən namizədlərə sualların, tapşırıqların verilməsi və namizədlərin həmin sualları cavablandırması, tapşırıqları həll etməsi və müsahibənin keçirilməsi yolu ilə həyata keçirilir. Suallar konkret, aydın olmaqla namizədin nəzəri biliklərinin, tapşırıqlar isə onların həlli üçün qısa zaman tələb olunmaqla praktiki vərdişlərinin, bacarığının müəyyən edilməsi üçün verilir. 5 sual və tapşırıq müsabiqə komissiyası tərəfindən əvvəlcədən müəyyən edilir və müsabiqə günü namizədlər tərəfindən yazılı formada cavablandırılaraq müsabiqə komissiyasına təqdim edilir. Eyni vəzifəyə müraciət edən namizədlərə eyni sual və tapşırıqlar verilir.

4.5. Müsahibə hər bir namizədlə fərdi qaydada həyata keçirilir və ən azı 15 dəqiqə aparılır. Müsahibə zamanı hər namizədin iddiasında olduğu vəzifənin tələblərinə uyğunluğunu, bilik səviyyəsini və ümumi dünyagörüşünü müəyyən etmək üçün suallar verilir.

4.6. Namizəd müsabiqə zamanı aşağıdakı tələblərə riayət etməlidir:

4.6.1. müsabiqə komissiyasının üzvlərinə hörmətlə yanaşmaq, onların suallarını, tapşırıqlarını sonadək dinləmək;

4.6.2. müsabiqənin keçirildiyi otaqda rabitə vasitələrindən istifadə etməmək.

## 5. Müsabiqə nəticələrinin qiymətləndirilməsi

5.1. Müsabiqə zamanı namizədin sual və tapşırıqları yerinə yetirməsi və müsahibə zamanı suallara verdiyi cavablar müsabiqə komissiyasının üzvləri tərəfindən ballarla qiymətləndirilir və "Namizədin müsabiqədə qiymətləndirilməsinə dair bal cədvəli" ilə rəsmiləşdirilərək müsabiqə komissiyasının sədrinə təqdim edilir(2 nömrəli əlavə). Namizədin sual və tapşırıqlara verdiyi yazılı cavabların hər biri və müsahibə zamanı suallara verdiyi cavablar 5 ballıq sistem üzrə qiymətləndirilir. Müsabiqə komissiyasının üzvləri arasında namizədin cavabları ilə bağlı fikir mübadiləsi keçirilə bilər. Müsabiqə komissiyasının üzvlərinin verdiyi qiymətlər toplanılmaqla, müsabiqənin yekun nəticələri "Namizədin müsabiqədə qiymətləndirilməsinin yekun protokolu" ilə rəsmiləşdirilir(3 nömrəli əlavə).

5.2. Namizədlərin balları eyni olduqda, müvafiq ixtisas üzrə əmək stajı daha çox olan şəxslərə, şəhid ailələrinə, əlillərə, öhdəsində 16 yaşadək iki və daha çox uşağı olanlara və vakant vəzifənin tələblərinə uyğun elmi dərəcəsi və ya elmi adı olanlara üstünlük verilir. Müsabiqənin nəticəsi üzrə qərar həmin iş günü müddətində elan olunur, bələdiyyənin rəsmi internet saytında (olduğu halda) və digər kütləvi informasiya vasitələrində verilir, habelə bələdiyyənin binasında xüsusi lövhələrdə yerləşdirilir. Müsabiqənin nəticəsinə uyğun olaraq, ən yüksək bal toplamış namizəd 10 (on) iş günü müddətində vakant iş yerinə təyin edilir.

5.3. Bu Qaydanın 3 nömrəli əlavəsinə əsasən hazırlanmış yekun protokol 2 (iki) il müddətində müsabiqə komissiyasında saxlanılır.

5.4. Namizədin tələbi əsasında ona 3 (üç) gün müddətində müsabiqənin nəticəsi üzrə topladığı bal haqqında təsdiq edilmiş formada arayış verilir.

5.5. Müsabiqənin nəticəsi ilə razı olmayan namizədlər həmin nəticələr elan olunduğu tarixdən 30 (otuz) gün müddətində Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada bələdiyyəyə və ya məhkəməyə şikayət verə bilərlər.

## 6. Yekun müddəa

6.1. Bu Qaydada dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

"Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası"na
**1 nömrəli əlavə**

_________________ bələdiyyəsinin sədri

___________________________________

(soyadı və adı)

___________________________________

(ərizəçinin yaşadığı ünvan)

________________ ünvanında yaşayan

______________________________
(ərizəçinin soyadı, adı, atasının adı)
tərəfindən

Ə R İ Z Ə

____________________________________________________vəzifəsinə
(vakant vəzifənin adı)
qulluğa qəbul olunmaq üçün müsabiqədə iştirak etməyim üçün sənədlərimin qəbul edilməsini xahiş edirəm.

İmza ____________

"____" __________ 20____ il

"Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası"na
**2 nömrəli əlavə**

**Namizədin müsabiqədə qiymətləndirilməsinə dair bal cədvəli**

| | |
|---|---|
| Namizədin adı, soyadı və atasının adı | |
| Bələdiyyənin adı | |
| Vakant vəzifənin adı | |

| **Yazılı imtahanın nəticələri** | | **Müsahibənin qiymətləndirilməsi** | |
|---|---|---|---|
| **Sualların №-si** | **Ballar (0-5 bal arası)** | **qiymətləndirmə meyarları** | **ballar (0-5 bal arası)** |
| 1. | | bilik səviyyəsi | |
| 2. | | ümumi dünyagörüşü | |
| 3. | | | |
| 4. | | | |
| 5. | | | |
| **Cəmi:** | | **Cəmi:** | |

Ümumi bal [ ]

______________________________ ____________ ____________
Müsabiqə komissiyasının üzvünün adı və İmzası tarix: gün/ay/il

soyadı

"Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası"na
**3 nömrəli əlavə**

**Namizədin müsabiqədə qiymətləndirilməsinin**

**YEKUN PROTOKOLU**

| | |
|---|---|
| Namizədin soyadı, adı və atasının adı | |
| Bələdiyyənin adı | |
| Vakant vəzifənin adı | |
| Yekun qiymətləndirmə balı | |

**Müsabiqə komissiyasının üzvləri:**

1. ________________________________ ________________________
(soyadı və adı) (imza)
2. ________________________________ ________________________
(soyadı və adı) (imza)
3. ________________________________ ________________________
(soyadı və adı) (imza)
4. ________________________________ ________________________
(soyadı və adı) (imza)
5. ________________________________ ________________________
(soyadı və adı) (imza)

________________________________ ____________ ______________
Müsabiqə komissiyasının üzvünün adı və soyadı | İmzası | tarix: gün/ay/il

**“*Dövlət və bələdiyyə tərəfindən yaradılan* tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında**[1]

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1200-IVQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 1138 nömrəli Sərəncamının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“*Dövlət və bələdiyyə tərəfindən yaradılan* tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

Bakı şəhəri, 14 mart 2016-cı il
№ 125

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli qərarı ilə təsdiq edilmişdir**

***Dövlət və bələdiyyə tərəfindən yaradılan* tibb müəssisələrinin**[2]

## NÜMUNƏVİ NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

*1.1. Bu Nümunəvi Nizamnamə ”Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə, 46-cı maddəsinin altıncı hissəsinə və “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 1.2-ci bəndinə uyğun olaraq dövlət və bələdiyyə adından yaradılan tibb müəssisələrinin fəaliyyətini tənzimləmək üçün onların nizamnamələrinin hazırlanması və dövlət qeydiyyatından keçirilməsi məqsədi ilə hazırlanmışdır.*[3]

1.2. *Dövlət və bələdiyyə adından yaradılan tibb müəssisələri* (bundan sonra – müəssisə) öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, *“Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununu,* "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununu, bu nümunəvi Nizamnaməni və digər normativ hüquqi aktları, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra-Nazirlik) qərar, əmr və sərəncamlarını rəhbər tutur. [4]

*1.2-1. Bu Nümunəvi Nizamnamə müəssisə üçün fərdi nizamnamənin hazırlanmasında əsas hesab olunur.*

*1.2-2. Müəssisə “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra publik hüquqi şəxs statusunu əldə edir.*

*1.2-3. Müəssisə dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malik olmaqla, mülki vəzifələr daşıyır və onun hüquq qabiliyyətinə isə onun ləğvinin başa çatdığı an xitam verilir.*[5]

*1.3. Müəssisə publik hüquqi şəxsdir və müstəqil balansa, istifadəsində olan, müvafiq olaraq, dövlət və ya bələdiyyə əmlakına, xəzinə və bank hesablarına, üzərində öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.*[6]

1.4. Müəssisənin saxlanılması xərcləri və fəaliyyəti*, müvafiq olaraq, Azərbaycan Respublikasının dövlət büdcəsi və ya yerli büdcə (Naxçıvan Muxtar Respublikasında yerləşən müəssisəyə münasibətdə, müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının büdcəsi və ya yerli büdcə),* büdcədənkənar vəsaitlər, könüllü və icbari tibbi sığorta sistemindən daxil olan vəsaitlər, hüquqi və fiziki şəxslərin gəlirlərindən könüllü ayırmalar, hüquqi və fiziki şəxslərin ianələri və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir. [7]

*1.5. Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla, dövlət adından yaradılan müəssisənin nizamnaməsini və ona edilən dəyişiklikləri tabe olduğu orqanın təklifi əsasında Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi təsdiq edir. Bələdiyyə adından yaradılan müəssisənin nizamnaməsini və onda edilən dəyişiklikləri aidiyyəti bələdiyyə təsdiq edir.*[8]

*1.6. Müəssisə öz fəaliyyəti barədə ictimaiyyəti "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada məlumatlandırır.*[9]

*1.7. Müəssisə ____________________ ünvanda yerləşir.* [10]

## 2. Müəssisənin *fəaliyyətinin məqsədi və istiqamətləri* [11]

*2.1. Müəssisənin fəaliyyətinin əsas məqsədi xidmət göstərdiyi əhalinin sağlamlığının qorunması və bu sahədə hüquqlarının təmin edilməsindən ibarətdir.*[12]

*2.2.* Müəssisə "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu və digər müvafiq normativ hüquqi aktlara uyğun olaraq fəaliyyət göstərir.

## 3. Müəssisənin vəzifələri

3.1. Müəssisə aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. "*Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda* pulsuz tibbi xidmət göstərmək; [13]

3.1.2. növləri, həcmi, keyfiyyət standartları və göstərilməsi qaydası Nazirlik tərəfindən müəyyən edilən ixtisaslaşdırılmış tibbi yardım göstərmək;

3.1.3. elmi təbabətin və texnikanın nailiyyətləri, eləcə də təbabətin qabaqcıl təcrübəsi əsasında müasir profilaktika, diaqnostika və müalicə üsullarını təcrübədə tətbiq etmək;

3.1.4. tibbi fəaliyyətin təşkilati forma və üsullarını inkişaf etdirmək və təkmilləşdirmək;

3.1.5. fəaliyyət sahəsi üzrə xəstələnmənin profilaktikası, tibbi yardımın keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirmək;

3.1.6. tibb fəaliyyətini tənzimləyən aktlardan istifadə etmək;

3.1.7. qaydası Nazirlik tərəfindən müəyyən edilən ilkin tibbi-sanitariya yardımı göstərmək;

3.1.8. ictimai təhlükəli xəstəliklərə tutulmuş vətəndaşlara tibbi-sosial yardım göstərmək, onları qanunvericiliklə müəyyən edilmiş qaydada stasionar müalicə və dispanser müşahidəsi ilə təmin etmək *(bələdiyyə adından yaradılan müəssisə isə bu cür hallarda onları aidiyyəti üzrə - göndərmək)*; [14]

3.1.9. səhiyyədə tətbiq edilən profilaktika, diaqnostika və müalicə üsullarını, tibbi texnologiyaları, dərman və dezinfeksiya vasitələrini, immunobioloji preparatları istifadə təlimatlarına və farmakopeya məqalələrinə uyğun istifadə etmək. ~~Tətbiqinə icazə verilməyən, lakin müəyyən edilmiş qaydada baxılmaqda olan diaqnostika və müalicə üsullarından, habelə dərman vasitələrindən Nazirliyin qərarı və pasiyentin yazılı razılığı ilə, eləcə də yetkinlik yaşına çatmayanların və fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərin həyatı təhlükədə olduqda, onların valideynlərinin və ya qanuni nümayəndələrinin yazılı razılığı ilə istifadə etmək~~; [15]

*3.1.9-1. dərman vasitəsinin effektivliyi və təhlükəsizliyi üzərində dövlət nəzarətinin həyata keçirilməsi məqsədi ilə dərman vasitələrinin təhlükəsiz istifadəsinin təmin edilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq farmakonəzarət üzrə tədbirlər görmək və farmakonəzarət üzrə məsul şəxs müəyyən etmək;*

*3.1.9-2. dərman vasitələrinin əlavə təsirləri və dərman vasitələrinin istifadəsi zamanı yaranan digər arzuolunmaz nəticələr barədə məlumatları, həmçinin farmakonəzarət üzrə məlumatları və hesabat sənədlərini Nazirliyə təqdim etmək;*[16]

3.1.10. orqanizmin funksiyalarının davamlı pozulması nəticəsində həyat fəaliyyətinin məhdudlaşmasının qiymətləndirilməsi əsasında vətəndaşın sosial müdafiə tədbirlərinə olan ehtiyaclarının müəyyən edilməsi məqsədi ilə tibbi-sosial ekspert komissiyalarına göndəriş vermək;

3.1.11. tibb personalı tərəfindən dərman və dezinfeksiya vasitələrinin, immunobioloji preparatların təyinatı üzrə işlədilməsini təmin etmək, onların saxlanılması şəraitinə və yararlılıq müddətinə nəzarət etmək;

3.1.12. insanın ölüm anını təsdiq etmək;

*~~3.1.13. qanunvericilikdə nəzərdə tutulmuş hallarda, transplantasiya məqsədi ilə insan orqan və toxumalarını götürmək;~~* [17]

*~~3.1.14. ölümün səbəbləri və xəstəliyin diaqnozu haqqında məlumat əldə etmək məqsədi ilə patoloji-anatomik yarma aparmaq;~~*

3.1.15. əmək qabiliyyətinin müvəqqəti itirilməsinin ekspertizasını həyata keçirmək;

3.1.16. sanitar-məişət şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər həyata keçirmək;

3.1.17. sanitariya-gigiyena və əksepidemik rejimlərin tələblərinin yerinə yetirilməsi üzrə tədbirlər həyata keçirmək;

3.1.18. ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.19. işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitini təmin etmək;

3.1.20. tibb sahəsində mütəxəssislərin peşə biliyi və bacarıqlarının təkmilləşdirilməsini təşkil etmək, onları ixtisas səviyyələrinin artırılmasına cəlb etmək;

3.1.21. həkim sirrinin qorunması üçün tədbirlər görmək;

3.1.22. müəssisənin və onun struktur bölmələrinin fəaliyyətinin keyfiyyətini və səmərəliliyini təhlil etmək;

3.1.23. *"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 12-1-ci maddəsinə uyğun olaraq, mühasibat uçotunu aparmaq və maliyyə hesabatlarını tərtib etmək*, dövlət hesabat məlumatlarını toplamaq, ümumiləşdirmək, təhlil etmək və müvafiq dövlət orqanlarına təqdim etmək; [18]

3.1.24. vətəndaşların sağlamlığı vəziyyətinə "Elektron sağlamlıq kartı" vasitəsilə elektron nəzarət sistemini tətbiq etmək;

3.1.25. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.26. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə qanun-vericiliyə uyğun olaraq baxmaq və tədbirlər görmək;

3.1.27. fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

*3.2. Dövlət adından yaradılan tibb müəssisələri əlavə olaraq aşağıdakı vəzifələri yerinə yetirir:* [19]

*3.2.1. tətbiqinə icazə verilməyən, lakin müəyyən edilmiş qaydada baxılmaqda olan diaqnostika və müalicə üsullarından, habelə dərman vasitələrindən Nazirliyin qərarı və pasiyentin yazılı razılığı ilə, eləcə də yetkinlik yaşına çatmayanların və fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərin həyatı təhlükədə olduqda, onların valideynlərinin və ya qanuni nümayəndələrinin yazılı razılığı ilə istifadə etmək;*

*3.2.2. qanunvericilikdə nəzərdə tutulmuş hallarda, transplantasiya məqsədi ilə insan orqan və toxumalarını götürmək;*

*3.2.3. ölümün səbəbləri və xəstəliyin diaqnozu haqqında məlumat əldə etmək məqsədi ilə patoloji-anatomik yarma aparmaq.*

## 4. Müəssisənin hüquqları

4.1. Müəssisə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. *dövlət adından yaradılan müəssisələrdə* növləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən ixtisaslaşdırılmış pullu tibbi yardım göstərmək; [20]

*4.1.1-1. bələdiyyə adından yaradılan müəssisələrdə pullu tibbi xidmət göstərmək ("Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş pulsuz tibbi xidmət göstərmə halları istisna olmaqla);* [21]

4.1.2. müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.3. fəaliyyət sahəsi üzrə tibbi konfrans, simpozium və qurultaylarda iştirak etmək;

4.1.4. fəaliyyət sahəsi üzrə dövlət və *bələdiyyə* orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq; [22]

4.1.5. müstəqil ekspertləri, o cümlədən xarici ölkələrdə hazırlıq keçən tibb və əczaçılıq mütəxəssislərini Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.6. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.7. fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

## 5. Müəssisənin fəaliyyətinin idarə olunması

5.1. Müəssisənin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi *dövlət adından yaradılan müəssisəyə münasibətdə tabe olduğu orqanın rəhbəri, bələdiyyə adından yaradılan müəssisəyə münasibətdə isə bələdiyyə (bundan sonra - tabe olduğu orqan)* tərəfindən həyata keçirilir. [23]

5.2. *Müəssisənin fəaliyyətinə Nazirliyin tabeliyində olan müəssisələrə münasibətdə səhiyyə naziri, digərlərinə isə müvafiq olaraq, aidiyyəti icra hakimiyyəti orqanlarının rəhbərləri və ya bələdiyyə tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müəssisənin rəhbəri (baş həkim, baş direktor, rəis, müdir) və ya kollegial icra orqanı (bundan sonra-müəssisə rəhbəri) rəhbərlik edir.* Müəssisənin rəhbəri müəssisəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. [24]

5.3. Müəssisə rəhbərinin *(təkbaşçı icra orqanı olduqda)* tabe olduğu orqanın rəhbəri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini (müavinləri) vardır. [25]

5.4. Müəssisə rəhbərinin müavini (müavinləri) ona (onlara) həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.5. Müəssisə rəhbəri:

5.5.1. müəssisənin işini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə və iş bölgüsü aparır, müəssisənin digər vəzifəli şəxslərinin həvalə edilmiş sahələr üzrə səlahiyyətini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. müəssisənin strukturuna daxil olan qurumların vəzifə təlimatlarını təsdiq edir, onların fəaliyyətinə nəzarəti təşkil edir və işinin əlaqələndirilməsini təmin edir, müvafiq yoxlamalar təyin edir;

5.5.4. müəssisənin iş planını təsdiq edir, onun vaxtında və keyfiyyətli icrasına nəzarəti həyata keçirir;

5.5.5. müəssisənin fəaliyyətini tabe olduğu orqanın sisteminə daxil olan qurumlarla əlaqələndirir;

5.5.6. müəssisənin fəaliyyəti ilə bağlı məsələlərin tabe olduğu orqanın kollegiyasının *(bələdiyyə iclasının)* müzakirəsinə çıxarılması üçün təşəbbüs göstərir, bu məsələlərin kollegiyanın *(bələdiyyə iclasının)* müzakirəsinə hazırlanmasını təmin edir; [26]

5.5.7. tabe olduğu orqanın iş planında və ~~kollegiyasının~~ qərarlarında, əmr və sərəncamlarında nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;[27]

5.5.8. müəssisənin və onun strukturuna daxil olan qurumların fəaliyyətinə, tabeliyində olan işçilərin vəzifələrinin yerinə yetirilməsinə, müəssisədə icra və əmək intizamına nəzarət edir;

5.5.9. müəyyən edilmiş struktur, işçilərin say həddi və ayrılmış büdcə vəsaitləri daxilində müəssisənin və strukturuna daxil olan digər qurumların xərclər smetasına dair yuxarı idarəetmə orqanına təkliflər verir;

5.5.10. müəssisənin fəaliyyətinin, ştat və strukturunun təkmilləşdirilməsinə dair tabe olduğu orqanın rəhbərinə təkliflər verir;

5.5.11. səlahiyyətləri daxilində kadr məsələlərini həll edir;

5.5.12. qanunvericiliklə müəyyən edilmiş qaydada işçilərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, həvəsləndirilməsi, intizam tənbeh tədbirlərinin tətbiq edilməsi və vəzifədən kənarlaşdırılması barədə tədbirlər görür;

5.5.13. *müvafiq olaraq, dövlət büdcəsindən və ya yerli büdcədən* ayrılan vəsaitlərin həddi nəzərə alınmaqla, işçilərin vəzifə maaşlarına əlavələrin, maddi yardımın və mükafatların verilməsini təmin edir; [28]

5.5.14. *müvafiq olaraq, dövlət büdcəsindən və ya yerli büdcədən* ayrılmış vəsait və ştat sayı hüdudlarında tabeliyində olan qurumların yaradılması, yenidən təşkili və ləğv edilməsi, habelə yeni ştat vahidlərinin ayrılması barədə tabe olduğu orqana təkliflər verir;

5.5.15. səlahiyyətləri daxilində korrupsiyaya və maraqlar toqquşmasına qarşı tədbirlər görür;

5.5.16. səlahiyyətləri daxilində icrası məcburi olan əmr, sərəncam və yazılı göstərişlər verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

5.5.17. müəssisədə kargüzarlıq və arxiv işinin aparılmasını, dövlət sirrinin qorunmasını və məxfilik rejiminə riayət olunmasını təmin edir;

5.5.18. *müvafiq olaraq, dövlət büdcəsindən və ya yerli büdcədən* ayrılmış vəsaitin təyinatı üzrə və səmərəli xərclənməsini təmin edir;

5.5.19. səlahiyyətləri daxilində digər məsələləri həll edir.

5.6. Müəssisə rəhbərinin müavini:

5.6.1. vəzifə bölgüsü ilə ona həvalə edilmiş sahələrin fəaliyyətinə görə məsuliyyət daşıyır;

5.6.2. ona həvalə edilmiş sahənin işinə nəzarət edir;

5.6.3. müvafiq sahələrin fəaliyyətinə nəzarət edir;

5.6.4. həvalə edilmiş sahələr üzrə fəaliyyətin təkmilləşdirilməsi məqsədi ilə müəssisənin rəhbərinə təkliflər verir;

5.6.5. ümumiləşdirmələr aparır, statistik və digər hesabatları hazırlayır və müəssisə rəhbərinə təqdim edir;

5.6.6. müəssisənin rəhbəri vəzifəsini icra edə bilmədikdə, tabe olduğu orqanın rəhbərinin tapşırığına əsasən onun vəzifələrini yerinə yetirir;

5.6.7. peşə hazırlığının yüksəldilməsi məqsədi ilə tibb elmini daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır;

5.6.8. fəaliyyəti ilə bağlı tabe olduğu orqanın rəhbərliyinin və müəssisə rəhbərinin tapşırıqlarını yerinə yetirir.

5.7. Müəssisədə onun *rəhbərliyindən* və digər rəhbər işçilərdən ibarət məşvərətçi kollegial orqan – Tibbi Şura yaradılır. Tibbi Şuranın üzvlərinin sayı və fərdi tərkibi, habelə iş qaydası *tabe olduğu* orqanın rəhbəri tərəfindən müəyyən edilir. [29]

5.8. Tibbi Şura:

5.8.1. müəssisənin xüsusiyyətləri nəzərə alınmaqla, ayrı-ayrı xəstəliklər üzrə müayinə və müalicə standartlarının tətbiqini təmin edir;

5.8.2. müəssisədə aparılan müalicə-profilaktika və sanitariya-əksepidemik fəaliyyətin keyfiyyətini və səmərəliliyini öyrənir, bu fəaliyyətin təkmilləşdirilməsi istiqamətində müzakirələr təşkil edir;

5.8.3. müəssisənin dövri hesabatlarına dair dinləmələr keçirir və onun fəaliyyətinə qiymət verir;

5.8.4. işində ciddi nöqsanlar aşkar edilmiş ayrı-ayrı tibb işçilərinin fəaliyyətini müzakirə edir, nəticəsindən asılı olaraq, onlar barəsində qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsi barədə tövsiyələr verir;

5.8.5. təbabətin aktual məsələlərinə həsr olunmuş kliniki müzakirələrin və elmi-praktik konfransların mövzularını müəyyən edir;

5.8.6. klinik diaqnostikasında çətinlik və tərəddüdlərlə qarşılanmış xəstəliklər nəticəsində baş vermiş, klinik və patoloji anotomik diaqnozlarda ciddi uyğunsuzluq olan və mübahisə doğuran ölüm hadisələrini və bununla bağlı tibb işçilərinin fəaliyyətini müzakirə edir, nəticəsindən asılı olaraq müvafiq tövsiyələr verir;

5.8.7. müəssisənin iş planını və onun icrası vəziyyətini müzakirə edir.

5.9. Tibbi Şuranın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Tibbi Şuranın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Qərar qəbul edilərkən səslər bərabər olarsa, Tibbi Şuranın sədrinin səsi həlledici hesab edilir.

5.10. Tibbi Şuranın qərarları protokolla rəsmiləşdirilir və sədri tərəfindən təsdiq edilir.

5.11. Tibbi Şuranın iclasları müəssisənin rəhbəri tərəfindən mütəmadi olaraq çağırılır.

*5.12. Müəssisənin fəaliyyətinə nəzarət tabe olduğu orqan, həmçinin bu Nümunəvi Nizamnamə ilə müəyyən edilmiş qaydada müəssisə rəhbəri və Tibbi Şura tərəfindən həyata keçirilir.*[30]

### *6. Müəssisənin nizamnamə fondu və əmlakı*[31]

*6.1. Müəssisənin nizamnamə fondu tabe olduğu orqan tərəfindən verilmiş əmlak hesabına formalaşır.*

*6.2. Müəssisənin əmlakı nizamnamə fondundan, ona tabe olduğu orqan tərəfindən verilmiş digər əmlakdan, müvafiq olaraq, dövlət büdcəsindən və ya yerli büdcədən ayrılan vəsaitdən, fəaliyyət istiqamətlərinə uyğun olaraq görülən işlərdən, göstərilən xidmətlərdən əldə edilən daxilolmalardan, ianələrdən və qrantlardan formalaşır.*

*6.3. Müəssisə əmlakı üzərində sahiblik və istifadə hüququnu yalnız məqsədlərinə uyğun olaraq sərbəst, sərəncam vermək hüququnu isə tabe olduğu orqanla razılaşdırmaqla həyata keçirir.*

*6.4. Müəssisənin tabe olduğu orqan müəssisənin öhdəlikləri üçün cavabdeh deyildir və onun fəaliyyəti ilə bağlı zərər üçün müəssisəyə verdiyi əmlakın dəyəri həddində risk daşıyır.*

### *7. Müəssisənin yenidən təşkili və ləğvi*[32]

*Müəssisənin ləğvi və yenidən təşkili ilə bağlı məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi və "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.*

***Qeyd.*** *Bu Nizamnamədə dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.* [33]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**)

**2.** 5 iyul 2017-ci il tarixli **275** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 6 iyul 2017-ci il, № 142, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1473)**

**3.** 25 oktyabr 2018-ci il tarixli **465** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 27 oktyabr 2018-ci il, № 242)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə adında və ikinci abzasda “**Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki**” sözləri **“Dövlət və bələdiyyə tərəfindən yaradılan**” sözləri ilə əvəz edilmişdir.

[2] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin adında “**Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki**” sözləri “**Dövlət və bələdiyyə tərəfindən yaradılan**” sözləri ilə əvəz edilmişdir.

[3] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin 1.1-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~1.1. Bu Nümunəvi Nizamnamə "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə və 46-cı maddəsinin altıncı hissəsinə uyğun olaraq hazırlanmışdır və tabeliyindən, təşkilati-hüquqi formasından asılı olmayaraq, dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki dövlət tibb müəssisələrinin fəaliyyətini tənzimləmək üçün onların nizamnamələrinin hazırlanması və hüquqi şəxslərin dövlət qeydiyyatından keçirilməsi məqsədi ilə hazırlanmışdır.~~

[4] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin 1.2-ci bənddə “**Dövlət tibb müəssisəsi**” sözləri “**Dövlət və bələdiyyə adından yaradılan tibb müəssisələri**” sözləri ilə əvəz edilmişdir, həmin bəndə “**Məcəlləsini,**” sözündən sonra “**Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununu,**” sözləri əlavə edilmişdir.

[5] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nə yeni məzmunda 1.2-1-ci, 1.2-2-ci və 1.2-3-cü bəndlər əlavə edilmişdir.

[6] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan

hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 1.3-cü bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1.3. Müəssisə qeyri-kommersiya hüquqi şəxsdir və müstəqil balansa, istifadəsində olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.~~

[7] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 1.4-cü bənddə "**Azərbaycan Respublikasının dövlət büdcəsi (Naxçıvan Muxtar Respublikasında yerləşən dövlət müəssisələrinə münasibətdə Naxçıvan Muxtar Respublikasının büdcəsi)"** sözləri **", müvafiq olaraq, Azərbaycan Respublikasının dövlət büdcəsi və ya yerli büdcə (Naxçıvan Muxtar Respublikasında yerləşən müəssisəyə münasibətdə, müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının büdcəsi və ya yerli büdcə)**" sözləri ilə əvəz edilmişdir.

[8] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə yeni məzmunda 1.5-ci bənd əlavə edilmişdir.

[9] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə yeni məzmunda 1.6-cı bənd əlavə edilmişdir.

[10] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə yeni məzmunda 1.7-ci bənd əlavə edilmişdir.

[11] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 2-ci hissənin adında "**fəaliyyət istiqaməti**" sözləri "**fəaliyyətinin məqsədi və istiqamətləri**" sözləri ilə əvəz edilmişdir.

[12] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 2.1-ci bənd 2.2-ci bənd hesab edilmişdir və yeni məzmunda 2.1-ci bənd əlavə edilmişdir.

[13] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 3.1.1-ci yarımbəndə

"**pulsuz**" sözündən əvvəl "**Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda**" sözləri əlavə edilmişdir.

[14] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 3.1.8-ci yarımbəndə "**təmin etmək**" sözlərindən sonra **"(bələdiyyə adından yaradılan müəssisə isə bu cür hallarda onları aidiyyəti üzrə - göndərmək)"**sözləri əlavə edilmişdir.

[15] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 3.1.9-cu yarımbənddən ikinci cümlə çıxarılmışdır.

[16] 25 oktyabr 2018-ci il tarixli **465** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 27 oktyabr 2018-ci il, № 242)** ilə "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə yeni məzmunda 3.1.9-1-ci və 3.1.9-2-ci yarımbəndlər əlavə edilmişdir.

[17] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 3.1.13-cü və 3.1.14-cü yarımbəndləri ləğv edilmişdir.

[18] 5 iyul 2017-ci il tarixli **275** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 6 iyul 2017-ci il, № 142, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1473**) ilə "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 3.1.23-cü yarımbəndində "**mühasibat uçotunu aparmaq**" sözləri "**Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 12-1-ci maddəsinə uyğun olaraq, mühasibat uçotunu aparmaq və maliyyə hesabatlarını tərtib etmək**" sözləri ilə əvəz edilmişdir.

[19] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə yeni məzmunda 3.2-ci bənd əlavə edilmişdir.

[20] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 4.1.1-ci yarımbəndə "**növləri**" sözündən əvvəl "**dövlət adından yaradılan müəssisələrdə**" sözləri əlavə edilmişdir.

[21] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə yeni məzmunda 4.1.1-1-ci yarımbənd əlavə edilmişdir.

[22] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin 4.1.4-cü yarımbənddə “**yerli özünüidarəetmə**” sözləri “**bələdiyyə**” sözü ilə əvəz edilmişdir.

[23] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin 5.1-ci bənddə “**tabe olduğu orqanın rəhbəri**” sözləri “**dövlət adından yaradılan müəssisəyə münasibətdə tabe olduğu orqanın rəhbəri, bələdiyyə adından yaradılan müəssisəyə münasibətdə isə bələdiyyə (bundan sonra - tabe olduğu orqan)”** sözləri ilə əvəz edilmişdir.

[24] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin 5.2-ci bəndin birinci cümləsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Müəssisənin fəaliyyətinə Nazirliyin tabeliyində olan müəssisələrə münasibətdə səhiyyə naziri, digərlərinə isə aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müəssisənin rəhbəri (baş həkim, baş direktor, direktor, rəis, müdir) rəhbərlik edir.~~

[25] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin 5.3-cü bəndə “**rəhbərinin**” sözündən sonra **“(təkbaşçı icra orqanı olduqda)”** sözləri əlavə edilmişdir.

[26] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin 5.5.6-cı yarımbəndə “**kollegiyasının**” və “**kollegiyanın**” sözlərindən sonra **“(bələdiyyə iclasının)”** sözləri əlavə edilmişdir.

[27] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin 5.5.7-ci yarımbənddən “**kollegiyasının**” sözü çıxarılmışdır.

[28] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə “Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin 5.5.13-cü, 5.5.14-cü və 5.5.18-ci yarımbəndlərdə “**dövlət büdcəsindən**” sözləri “**müvafiq olaraq, dövlət büdcəsindən və ya yerli büdcədən**” sözləri ilə əvəz edilmişdir.

[29] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 5.7-ci bəndin birinci cümləsində "**rəhbərindən (sədrindən), müavinlərdən**" sözləri "**rəhbərliyindən**" sözü ilə, ikinci cümləsində "**tabeliyində** olan" sözləri "**tabe olduğu**" sözləri ilə əvəz edilmişdir.

[30] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə yeni məzmunda 5.12-ci bənd əlavə edilmişdir.

[31] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1735**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 6-cı hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

**~~6. Müəssisənin yenidən təşkili və ləğv olunması~~**

~~6.1. Müəssisənin yenidən təşkili və ləğv olunması Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə razılaşdırıl-maqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.~~

[32] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə yeni məzmunda 7-ci hissə əlavə edilmişdir.

[33] 24 oktyabr 2016-cı il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 oktyabr 2016-cı il, № 236**) ilə "Dövlət orqanlarının və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyindəki tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə 7-ci hissənin mətnindən sonra yeni məzmunda "Qeyd" əlavə edilmişdir.

## “Dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü Qaydaları”nın təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1284-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 566 nömrəliFərmanının 1.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

Bakı şəhəri, 28 oktyabr 2016-cı il
№ 422

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2016-cı il 28 oktyabr tarixli 422 nömrəli qərarı ilə**
**TƏSDİQ EDİLMİŞDİR**

## Dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü

## Q A Y D A L A R I

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikası Qanununun 3.6-cı maddəsinə uyğun olaraq hazırlanmışdır və dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyasını, tədavülünü və ödənilməsini tənzimləyir.

1.2. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. dövlət istiqrazı – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən büdcə kəsirinin maliyyələşdirilməsi məqsədi ilə buraxılan istiqraz;

1.2.2. bələdiyyə istiqrazı – bələdiyyə tərəfindən buraxılan istiqraz;

1.2.3. emitent – dövlət istiqrazlarının emissiyası zamanı Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, bələdiyyə istiqrazlarının emissiyası zamanı isə bələdiyyə;

1.2.4. qısamüddətli istiqraz – tədavül müddəti bir ilədək olan istiqraz;

1.2.5. ortamüddətli istiqraz – tədavül müddəti bir ildən beş ilədək olan istiqraz;

1.2.6. uzunmüddətli istiqraz – tədavül müddəti beş ildən artıq olan istiqraz;

1.2.7. istiqraz buraxılışlarının məcmusu – bir il ərzində buraxılması nəzərdə tutulan və yerləşdirilməsi hissələrlə aparılan istiqraz buraxılışlarının məcmu nominal dəyəri;

1.2.8. ticarət iştirakçısı – fond birjasının üzvləri və Azərbaycan Respublikasının Mərkəzi Bankı;

1.2.9. rəqabətli sifariş – alınacaq istiqrazların qiymətini və miqdarını özündə əks etdirən emitentə ünvanlanmış sifariş;

1.2.10. qeyri-rəqabətli sifariş – alınacaq istiqrazların məbləğini özündə əks etdirən emitentə ünvanlanmış sifariş;

1.2.11. buraxılış şərtləri – emitent və emissiya edilən investisiya qiymətli kağızları ilə təsbit edilmiş hüquqlar barədə məlumatı əks etdirən sənəd;

1.2.12. buraxılışın beynəlxalq eyniləşdirmə kodu – Milli Nömrələyici Agentliklər Assosiasiyasının üzvü olan Milli Depozit Mərkəzi (bundan sonra - Mərkəzi Depozitar) tərəfindən qiymətli kağızların buraxılışına verilən onikiişarəli hərf-rəqəmli kod.

1.3. Dövlət və bələdiyyə istiqrazları Azərbaycan Respublikasının rezidentləri və qeyri-rezidentləri tərəfindən əldə olunur.

## 2. Dövlət və bələdiyyə istiqrazlarının buraxılışı

2.1. Bir təqvim ili ərzində buraxılacaq dövlət istiqrazlarının buraxılışlarının məcmusu və bələdiyyə istiqrazlarının hər bir buraxılışı Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (bundan sonra - Palata) tərəfindən qeydiyyata alınır.

2.2. Dövlət və ya bələdiyyə istiqrazlarının buraxılışları buraxılış şərtləri ilə müşayiət olunur.

2.3. Emitent dövlət və ya bələdiyyə istiqrazlarının buraxılışlarının dövlət qeydiyyatına alınması üçün ərizə ilə Palataya müraciət edir. Ərizə poçt və ya Palatanın rəsmi internet informasiya ehtiyatında xüsusi elektron xidmət bölməsi vasitəsilə göndərilə bilər.

2.4. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

2.4.1. dövlət və bələdiyyə istiqrazlarının buraxılışı haqqında qərar;

2.4.2. dövlət və bələdiyyə istiqrazlarının buraxılış şərtləri;

2.4.3. bələdiyyə istiqrazlarının buraxılışına dair Azərbaycan Respublikası Maliyyə Nazirliyinin razılıq məktubu.

2.5. Dövlət istiqrazlarının buraxılış şərtlərində aşağıdakılar öz əksini tapmalıdır:

2.5.1. emitentin tam adı və hüquqi ünvanı;

2.5.2. dövlət istiqrazlarının növü (faizli və ya diskontlu istiqrazlar), dövriyyə müddəti (qısamüddətli, ortamüddətli və ya uzunmüddətli);

2.5.3. dövlət istiqrazlarının buraxılacağı təqvim ili;

2.5.4. dövlət istiqrazlarının yerləşdirilməsi, onlar üzrə gəlirliliyin hesablanması və ödənilməsi qaydası;

2.5.5. dövlət istiqraz mülkiyyətçisinin bir qiymətli kağızla təsbit edilmiş hüquqları;

2.5.6. dövlət istiqrazının nominal dəyəri və sayı;

2.5.7. təqvim ili ərzində buraxılacaq dövlət istiqrazlarının emissiyasının ümumi məbləği;

2.5.8. kütləvi təklif üsulu ilə yerləşdirildiyi halda dövlət istiqrazlarının yerləşdirildiyi fond birjasının adı, ünvanı, fond birjasına fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş lisenziyanın qeydiyyat nömrəsi və verilmə tarixi (kütləvi təklif üsulu ilə yerləşdirilən dövlət istiqrazları üçün);

2.5.9. klirinq təşkilatının adı, ünvanı, klirinq fəaliyyətinin həyata keçirilməsi üçün ona verilmiş lisenziyanın qeydiyyat nömrəsi və verilmə tarixi;

2.5.10. dövlət istiqrazlarının saxlanılmasını və uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer.

2.6. Bələdiyyə istiqrazlarının buraxılış şərtlərində aşağıdakılar əks olunmalıdır:

2.6.1. bələdiyyənin tam adı;

2.6.2. bələdiyyənin əhatə etdiyi ərazi və yerləşdiyi ünvan, elektron poçt ünvanı, internet səhifəsinin ünvanı və əlaqə telefonları;

2.6.3. bələdiyyənin tarixində mühüm hadisələr;

2.6.4. bələdiyyənin iqtisadi proqramları haqqında məlumat;

2.6.5. bələdiyyənin tədavüldə olan qiymətli kağızları haqqında məlumat (qiymətli kağızların dövlət qeydiyyat tarixi, nömrəsi, sayı və nominal dəyəri) və həmin qiymətli kağızların ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat;

2.6.6. bələdiyyə tərəfindən təsis edilən hüquqi şəxslərin adı, ünvanı və fəaliyyət istiqamətləri;

2.6.7. bələdiyyənin fəaliyyətinə cari maliyyə ili dövründə təsiretmə ehtimalı olan məlum tendensiyalar, öhdəliklər və ya hadisələr barədə məlumat;

2.6.8. bələdiyyənin üzvləri və icra orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:

2.6.8.1. adı, soyadı, atasının adı;

2.6.8.2. funksiyaları;

2.6.8.3. digər peşə fəaliyyəti olduqda, bu barədə məlumat;

2.6.8.4. xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda, maraqların toqquşması barədə hesabat;

2.6.9. bələdiyyənin daimi və digər komissiyaları barədə məlumat;

2.6.10. bələdiyyənin beynəlxalq əməkdaşlığının qısa təsviri;

2.6.11. bələdiyyənin fəaliyyət dövründə keçirilmiş vətəndaş yığıncaqları barədə məlumat;

2.6.12. bələdiyyənin fəaliyyəti dövründə ona göstərilmiş maliyyə yardımı barədə məlumat;

2.6.13. istiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə istiqamətləri barədə məlumat;

2.6.14. bələdiyyə istiqrazları barədə aşağıdakı məlumatlar:

2.6.14.1. istiqrazların növü (faizli və ya diskontlu istiqrazlar), dövriyyə müddəti (qısamüddətli, ortamüddətli və ya uzunmüddətli);

2.6.14.2. istiqrazların sayı və nominal dəyəri;

2.6.14.3. istiqrazların valyutası;

2.6.14.4. istiqrazların saxlanılmasını və uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer;

2.6.14.5. istiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər;

2.6.14.6. istiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti;

2.6.14.7. faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti;

2.6.14.8. faiz dərəcəsi müəyyən olunmadığı halda, istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri;

2.6.14.9. ödənişlər üzrə hesablaşma agentinin adı;

2.6.14.10. təmin edilmiş istiqrazlar buraxıldıqda, təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat (olduqda);

2.6.14.11. istiqrazların geri satın alınmasının şərtləri (olduqda);

2.6.14.12. istiqrazların gəlirlilik dərəcəsi və onun hesablanması qaydası;

2.6.14.13. investorları təmsil edən təşkilat barədə məlumat (olduqda);

2.6.14.14. istiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş bələdiyyənin idarəetmə orqanının adı;

2.6.14.15. istiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda);

2.6.14.16. istiqraz üzrə gəlirlərdən verginin tutulması barədə məlumat;

2.6.14.17. istiqraz üzrə gəlirlərdən verginin tutulması barədə emitentin öhdəliyi;

2.6.14.18. istiqrazların yerləşdirilməsinin başlanma və başaçatma tarixləri;

2.6.14.19. istiqrazların yerləşdirilmə qaydası, o cümlədən istiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası;

2.6.14.20.istiqrazların təklif qiyməti;

2.6.14.21. istiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği;

2.6.14.22. istiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Anderraytinq və yerləşdirmə komisyonlarının bütün məbləğinin göstəricisi;

2.6.14.23. market meyker(lər) barədə məlumat.

2.7. Bələdiyyə istiqrazları kütləvi təklif üsulu ilə yerləşdirildikdə, bu Qaydaların 2.6-cı bəndində göstərilən məlumatlarla yanaşı, buraxılış şərtlərinə aşağıdakılar əlavə olunmalıdır:

2.7.1. son üç maliyyə ili ərzində bələdiyyənin auditorlarının adı, ünvanı və hər hansı təşkilata üzvlüyü barədə məlumat;

2.7.2. son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə məlumat (səbəbləri göstərilməklə);

2.7.3. bələdiyyənin başa çatmış son iki maliyyə ili üzrə maliyyə hesabatları və hər ilə dair audit hesabatı;

2.7.4. bələdiyyə bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə, həmin dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları;

2.7.5. bələdiyyənin maliyyə vəziyyətinə və ya fəaliyyətinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla);

2.7.6. emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların münaqişəsi barədə ətraflı məlumat.

2.8. Bələdiyyə istiqrazlarının buraxılış şərtlərinə yarımillik və rüblük maliyyə hesabatları əlavə edildikdə, onlar buraxılış şərtləri qüvvədə olduğu müddət ərzində yenilənməlidir.

2.9. Dövlət və bələdiyyə istiqrazlarının buraxılışlarının dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərə onların təqdim edilməsi tarixindən etibarən 20 (iyirmi) iş günü müddətində baxılır və imtina üçün əsas olmadıqda, həmin dövlət və bələdiyyə istiqrazlarının buraxılışları Palata tərəfindən dövlət qeydiyyatına alınır və bu barədə emitentə onların buraxılışının (buraxılışlarının) dövlət qeydiyyatına alınması barədə qiymətli kağızların dövlət reyestrindən çıxarış verilir.

2.10. Palata dövlət və bələdiyyə istiqrazlarının buraxılışlarının dövlət qeydiyyatına alınmasından aşağıdakı hallarda imtina edir:

2.10.1. dövlət və bələdiyyə istiqrazlarının buraxılışlarının dövlət qeydiyyatı üçün təqdim olunmuş sənədlər bu Qaydaların tələblərinə cavab vermədikdə;

2.10.2. dövlət və bələdiyyə istiqrazlarının buraxılış şərtlərinə və ya onların buraxılışı haqqında qərara qeyri-dürüst, yaxud təhrif edilmiş məlumatların daxil edildiyi müəyyən olunduqda.

2.11. Bu Qaydaların 2.10-cu bəndində göstərilən hallar müəyyən edildikdə, Palata dövlət və bələdiyyə istiqrazlarının buraxılışlarının dövlət qeydiyyatına alınmasından imtina barədə əsaslandırılmış qərar qəbul edir və bu barədə iki iş günü ərzində emitentə məlumat göndərir.

2.12. Dövlət və bələdiyyə istiqrazları dövlət qeydiyyatına alındığı tarixdən bir il müddətində investisiya qiymətli kağızları tənzimlənən bazarda ticarətə buraxılmadıqda və ya onların kütləvi təklifi həyata keçirilmədikdə, buraxılış şərtləri qüvvədən düşmüş hesab edilir.

2.13. Kütləvi təklif olunan dövlət və bələdiyyə istiqrazlarının buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra buraxılan qiymətli kağızların emitenti, qiymətli kağızların nominal dəyəri, miqdarı və yerləşdirilmə üsulu haqqında məlumat "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.26-cı maddəsi ilə müəyyən edilmiş vahid məlumat resursunda, fond birjasının və emitentin internet səhifəsində (olduqda) açıqlanmalıdır.

2.14. Kütləvi təklif olunan dövlət və bələdiyyə istiqrazlarının buraxılış şərtləri emitentin ünvanında, qiymətli kağızlarının satış yerlərində olmalıdır və yerləşdirməni həyata keçirən investisiya şirkəti tərəfindən heç bir ödəniş tələb edilmədən təqdim edilməlidir.

## 3. Dövlət və bələdiyyə istiqrazlarının yerləşdirilməsi

3.1. Dövlət və bələdiyyə istiqrazlarının buraxılışları dövlət qeydiyyatına alındıqdan və istiqrazların buraxılış şərtlərində olan məlumatlar açıqlandıqdan (kütləvi təklif zamanı) sonra emitent istiqrazların yerləşdirilməsi hüququnu əldə edir.

3.2. Dövlət və bələdiyyə istiqrazlarının kütləvi təklif üsulu ilə yerləşdirilməsi onların fond birjası vasitəsilə hərraca çıxarılması yolu ilə həyata keçirilir.

3.3. Dövlət istiqrazları buraxılışlarla yerləşdirilir. Dövlət istiqrazlarının emitenti hər bir buraxılışa beynəlxalq eyniləşdirmə kodunun əldə edilməsi məqsədi ilə Mərkəzi Depozitara müraciət edir. Mərkəzi Depozitar tərəfindən buraxılışa bir iş günü müddətində beynəlxalq eyniləşdirmə kodu verilir.

3.4. Emitent buraxılışa beynəlxalq eyniləşdirmə kodu aldıqdan sonra dövlət istiqrazlarının hər buraxılışı üzrə istiqrazların beynəlxalq eyniləşdirmə kodunun nömrəsi, nominal dəyəri, sayı, məcmu nominal dəyəri və qeyri-rəqabətli sifarişlərin həcminə dair maksimum limit haqqında məlumatı hərraca ən geci 2 (iki) iş günü qalmış fond birjasına təqdim edir.

3.5. Fond birjası bu Qaydaların 3.4-cü bəndində göstərilən məlumatları aldıqdan sonra hərraca ən geci 1 (bir) iş günü qalmış həmin məlumatları, hərracın keçirilməsi vaxtını və tarixini hərrac iştirakçılarına açıqlayır və internet səhifəsində yerləşdirir.

3.6. Hərrac emitentin müəyyən etdiyi tarixdə fond birjasının daxili qaydalarına uyğun olaraq keçirilir.

3.7. Hərraclar iki mərhələdə təşkil olunur: sifarişlərin qəbul edilməsi və əqdlərin bağlanılması (sifarişlərin təmin edilməsi).

3.8. Sifarişlərin qəbulu mərhələsində investorlar birja üzvləri vasitəsilə birjanın ticarət qaydalarına əsasən rəqabətli və/və ya qeyri-rəqabətli sifarişlər təqdim edirlər.

3.9. Sifarişlərin təqdimedilmə müddətində hərrac iştirakçısı sifarişinin şərtlərini dəyişdirə və ya sifarişi ləğv edə bilər. Təqdimedilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir.

3.10. Sifarişlərin qəbul edilməsi müddətinin sonunda fond birjası təqdim olunmuş sifarişlərin reyestrini tərtib edir. Fond birjasının səlahiyyətli nümayəndəsi həmin reyestri imzalayır və emitentə təqdim edir. Emitentin birjanın ticarət sisteminə çıxışı olduqda, emitent təqdim olunmuş sifarişlərin reyestrini elektron şəkildə birbaşa olaraq ticarət sistemindən əldə edir.

3.11. Əqdlərin bağlanılması (sifarişlərin təmin edilməsi) mərhələsində emitent bu Qaydaların 3.8-ci bəndinə əsasən təqdim edilmiş sifarişlərin reyestri əsasında 1 (bir) iş günü ərzində istiqrazların minimum qiymətini (bundan sonra – kəsmə qiymət) və hərrac zamanı yerinə yetiriləcək rəqabətli sifarişlərin ortaçəkili qiymətini müəyyən edir.

3.12. Rəqabətli sifarişdə qeyd olunan qiymət kəsmə qiymətdən az olmadıqda həmin sifariş yerinə yetirilir.

3.13. Qeyri-rəqabətli sifariş emitent tərəfindən ortaçəkili qiymətlə yerinə yetirilir. Bu halda qeyri-rəqabətli sifarişlərlə alınan istiqrazların sayı sifarişdə göstərilən pul vəsaitinin məbləğinin ortaçəkili qiymətinə bölünməsi yolu ilə hesablanır (tam ədədlə).

3.14. Hərrac zamanı təqdim edilmiş rəqabətli və qeyri-rəqabətli sifarişlərin ümumi həcmi emitent tərəfindən müəyyən edilmiş limitdən artıq olduqda, eyni qiymətlə təqdim edilmiş sifarişlər mütənasiblik qaydasında icra edilir.

3.15. Hərrac bitdikdən sonra hərrac iştirakçıları ilə istiqrazlar üzrə bağlanılmış əqdlərin reyestri fond birjası tərəfindən emitentə və Mərkəzi Depozitara, əqdlər reyestrindən çıxarışlar isə hərrac iştirakçılarına təqdim olunur. Emitentin birjanın ticarət sisteminə çıxışı olduqda, emitent təqdim olunmuş əqdlərin reyestrini elektron şəkildə birbaşa olaraq ticarət sistemindən əldə edir.

3.16. Fond birjasında bağlanılmış əqdlər reyestrindən çıxarış hərrac iştirakçısı və emitent arasında dövlət və bələdiyyə istiqrazları üzrə alqı-satqı müqaviləsinin bağlanmasının təsdiqidir.

3.17. Dövlət və bələdiyyə istiqrazlarının qapalı yerləşdirilməsi investisiya şirkəti vasitəsilə həyata keçirilir.

3.18. Emitent bələdiyyə istiqrazlarının yerləşdirilməsi başa çatdığı tarixdən 10 (on) gün müddətində Palataya onların emissiyasının yekunları haqqında hesabat təqdim etməlidir.

3.19. Bələdiyyə istiqrazlarının emissiyasının yekunları haqqında hesabatda aşağıdakılar əks olunmalıdır:

3.19.1. istiqrazların yerləşdirilməsinin başlandığı və başa çatdığı tarixlər;

3.19.2. istiqrazların yerləşdirilməsi qiyməti;

3.19.3. yerləşdirilmiş istiqrazların sayı.

## 4. Dövlət və bələdiyyə istiqrazlarının tədavülü

4.1. Dövlət və bələdiyyə istiqrazları ilə alqı-satqı əqdləri investisiya şirkəti vasitəsilə bağlanmadıqda və ya belə əqdlərdə tərəf-müqabili investisiya şirkəti olmadıqda, həmin əqdlər notariat qaydasında təsdiq edilməlidir.

4.2. Dövlət və bələdiyyə istiqrazlarının fond birjasında alqı-satqısı ticarət iştirakçılarının öz adından və öz hesabına və ya öz adından investorun hesabına və onun tapşırığı ilə almaq və ya satmaq üçün sifarişlərin təqdim edilməsi ilə həyata keçirilir.

4.3. Sifarişlər aşağıdakı ardıcıllıqla yerinə yetirilir:

4.3.1. sifarişin təqdim olunduğu daha sərfəli qiymətlə (alqı zamanı ən yüksək, satqı zamanı ən aşağı) verilmiş sifariş;

4.3.2. qiymətlər bərabər olacağı təqdirdə, daha əvvəl təqdim olunmuş sifariş.

4.4. Sifarişin icra növbəliliyi onun həcmindən asılı deyildir.

4.5. Əqdin bağlanılması zamanı sifarişin müəyyən hissəsi yerinə yetirildikdə, onun qalan hissəsi ayrıca sifariş kimi çıxış edir.

4.6. Ticarət iştirakçısı sifariş icra edilənə qədər onu ləğv edə bilər.

## 5. Dövlət və bələdiyyə istiqrazlarının ödənilməsi

5.1. Dövlət və bələdiyyə istiqrazlarının və onlar üzrə faizlərin (faizli istiqrazlar üçün) ödənilməsi emitent tərəfindən klirinq təşkilatı vasitəsilə həyata keçirilir.

5.2. Dövlət və bələdiyyə istiqrazlarının dəyəri və onlar üzrə ödənilməli olan faizlər (faizli istiqrazlar üçün) emitent tərəfindən ödənildikdən sonra istiqrazlar Mərkəzi Depozitar tərəfindən dövriyyədən çıxarılır.

**"Yaşıllıq salınması məqsədi ilə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının və əhalinin əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunması Qaydası"nın təsdiq edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 2 may tarixli 957-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 iyun tarixli 190 nömrəliFərmanının 1.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yaşıllıq salınması məqsədi ilə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının və əhalinin əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunması Qaydası" təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

Bakı şəhəri, 28 fevral 2017-ci il
№ 71

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2017-ci il 28 fevral tarixli 71 nömrəli qərarı ilə**
**TƏSDİQ EDİLMİŞDİR**

**Yaşıllıq salınması məqsədi ilə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının və əhalinin əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunması**

**Q A Y D A S I**

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 9.0.6-cı maddəsinə uyğun olaraq hazırlanmışdır və meşə fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində olan yaşıllıqlar, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər) istisna olmaqla, respublika ərazisində yaşıllıq salınması məqsədi ilə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının və əhalinin əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunması qaydasını müəyyən edir.

1.2. Yaşıllıq salınması məqsədi ilə bələdiyyələrə, qeyri-hökumət təşkilatlarına və əhaliyə əvəzsiz olaraq verilməsi nəzərdə tutulan vasitələrə bütün flora növləri üzrə standart ölçüyədək yetişdirilən və ya alınan, yaxud qanunvericiliklə qadağan olunmayan digər yollarla əldə olunan əkinəyararlı materiallar (tinglər, toxmacarlar) və bu Qaydanın 1.3-cü bəndi ilə müəyyən edilən avadanlıqlar, inventar və digər vasitələr aiddir.

1.3. Bu Qaydada avadanlıq dedikdə, yaşıllıqların salınması prosesində istifadə olunan iş alətləri, o cümlədən yaşıllıq ərazilərinə (habelə yaşıllıq salınacaq ərazilərə) mexaniki, kimyəvi vasitələrlə təsir göstərmək üçün inventar, həmçinin fəaliyyətin asanlaşdırılması üçün ümumi və texniki təyinatlı

alətlər, yaşıllıq salınması prosesində lazım ola biləcək və belə işlərin təşkili praktikasında mövcud olan mexanikləşdirilməmiş digər əl əməyi alətləri nəzərdə tutulur.

1.4. Yaşıllıq salınması məqsədi ilə bələdiyyələrə, qeyri-hökumət təşkilatlarına və əhaliyə əkin materialları, avadanlıq, inventar və digər vasitələrin verilməsi ilə bağlı tələb olunan xərclər dövlət büdcəsindən maliyyələşən qurumlar üzrə ödənişli əsaslarla göstərdikləri xidmətlərdən əldə olunan büdcədənkənar xüsusi vəsaitlər, digər qurumlar üzrə isə qanunvericiliklə qadağan olunmayan fəaliyyətlərindən daxil olan vəsaitlər hesabına həyata keçirilir.

**2. Yaşıllıq salınması məqsədi ilə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının və əhalinin əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunması**

2.1. Yaşıllıq salınması məqsədi ilə bələdiyyələr, qeyri-hökumət təşkilatları və əhali (bundan sonra – Ərizəçi) əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunması üçün istifadəsində olan torpaq sahələrinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanlarına, digər torpaq sahələrinə münasibətdə isə yerli icra hakimiyyəti orqanlarına ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

2.1.1. fiziki şəxslər üçün - soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumat (seriyası, nömrəsi, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı);

2.1.2. hüquqi şəxslər üçün (bələdiyyələr daxil olmaqla) - hüquqi şəxsin adı, təşkilati-hüquqi forması (bələdiyyələr üçün - bələdiyyənin şəhadətnamə nömrəsi), hüquqi ünvanı barədə məlumat;

2.1.3. yaşıllıq salınması məqsədi ilə tələb olunan əkin materialları, avadanlıq, inventar və digər vasitələrin sayı barədə məlumat (siyahı);

2.1.4. yaşıllıq salınması nəzərdə tutulan ərazi barədə məlumatlar (ünvanı və ölçüləri);

2.1.5. yaşıllıq salınmasının ekoloji, ətraf mühitin sağlamlaşdırılması, təbliğat və maarifləndirmə baxımından əhəmiyyətinin əsaslandırılması.

2.2. Ərizəçinin müraciətinə istifadəsində olan torpaq sahələrinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, digər torpaq sahələrinə münasibətdə isə yerli icra hakimiyyəti orqanları tərəfindən "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxılır və yaşıllıq salınması məqsədi ilə əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin-olunma haqqında qərar qəbul edilir.

2.3. Yaşıllıq salınması məqsədi ilə Ərizəçiyə əkin materialları, avadanlıq, inventar və digər vasitələrin əvəzsiz verilməsi qaimə-faktura əsasında həyata keçirilir.

2.4. Ərizəçinin müraciətində və ona əlavə edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, ərizəni qəbul edən istifadəsində olan torpaq sahələrinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, digər torpaq sahələrinə münasibətdə isə yerli icra hakimiyyəti orqanları tərəfindən ərizə qeydiyyata alındığı tarixdən 3 (üç) iş günündən gec olmayaraq, bütün çatışmazlıqlar göstərilməklə, Ərizəçiyə məlumat verilir. Ərizəçi tərəfindən ərizədə və ona əlavə edilmiş sənədlərdə aşkar olunmuş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra bu Qaydanın 2.2-ci bəndinə uyğun olaraq yaşıllıq salınması məqsədi ilə Ərizəçinin əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunması barədə qərar qəbul edilir.

2.5. Bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan sənədlər təqdim edilmədikdə və Ərizəçinin təqdim etdiyi sənədlərdə düzgün olmayan, o cümlədən təhrif olunmuş məlumatlar aşkar olunduqda, yaşıllıq salınması məqsədi ilə əkin materialları, avadanlıq, inventar və digər vasitələrin əvəzsiz olaraq verilməsindən imtina edilir.

2.6. Ərizəçidən bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulmayan sənədlərin tələb olunması qadağandır.

2.7. Bu Qaydada göstərilən əsaslarla yaşıllıq salınması məqsədi ilə əkin materialları, avadanlıq, inventar və digər vasitələrin əvəzsiz olaraq verilməsindən imtina olunduğu halda, bu barədə Ərizəçiyə imtinanın səbəbləri göstərilməklə yazılı məlumat verilir.

2.8. Yaşıllıq salınması məqsədi ilə əkin materialları, avadanlıq, inventar və digər vasitələrin əvəzsiz olaraq verilməsindən imtina olunması barədə ərizəni qəbul edən müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanının qərarından inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

2.9. Ərizəçiyə yaşıllıq salınması məqsədi ilə əkin materialları, avadanlıq, inventar və digər vasitələr həmin vasitələrin təbii istismar müddətinə uyğun verilir. Müvafiq vasitələrin təbii istismar müddəti bitdikdə, onlar üzrlü səbəblərdən sıradan çıxdıqda, həmçinin istifadə olunaraq tükəndikdə, Ərizəçi yeni vasitələrlə təmin olunması ilə bağlı istifadəsində olan torpaq sahələrinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanlarına, digər torpaq sahələrinə münasibətdə isə yerli icra hakimiyyəti orqanlarına yenidən müraciət edə bilər.

2.10. Ərizəçi əvəzsiz verilən əkin materiallarından istifadə etməklə, yaşıllıq salınan ərazilərdə aşağıdakı tələblərə əməl etməlidir:

2.10.1. ərazidə torpağın münbitliyinin qorunmasının təmin edilməsi və onun deqradasiyasına yol verilməməsi;

2.10.2. ərazilərin zibillənməsinə, istehsalat və məişət tullantıları ilə çirklənməsinə yol verilməməsi;

2.10.3. ərazidə yanğın təhlükəsizliyi qaydalarına əməl edilməsi;

2.10.4. yaşıllıqların mühafizəsi sahəsində normativ hüquqi aktların tələblərinə əməl edilməsi, qanun pozuntularının qarşısının alınması.

2.11. Ərizəçi bu Qaydanın 2.10-cu bəndində göstərilən tələblərə əməl etmədiyi təqdirdə, istifadəsində olan torpaq sahələrinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, digər torpaq sahələrinə münasibətdə isə yerli icra hakimiyyəti orqanları tərəfindən əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunmur.

2.12. Ərizəçi tərəfindən yaşıllıq salınması məqsədi ilə əvəzsiz qaydada verilmiş əkin materialları, avadanlıq, inventar və digər vasitələrdən təyinatı üzrə istifadə etmədiyi aşkar edildikdə, həmin vasitələr geri alınır.

2.13. Yaşıllıq salınması məqsədi ilə əvəzsiz qaydada verilmiş əkin materialları, avadanlıq, inventar və digər vasitələrin təyinatı üzrə istifadəsinə həmin vasitələri vermiş istifadəsində olan torpaq sahələrinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, digər torpaq sahələrinə münasibətdə isə yerli icra hakimiyyəti orqanları, həmçinin "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən yaşıllıqların mühafizəsinə dövlət nəzarətini həyata keçirən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən nəzarət edilir.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 511-VQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 mart tarixli 1289 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 791, № 10, maddə 1735) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 3.1.23-cü yarımbəndində "mühasibat uçotunu aparmaq" sözləri "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 12-1-ci maddəsinə uyğun olaraq, mühasibat uçotunu aparmaq və maliyyə hesabatlarını tərtib etmək" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

Bakı şəhəri, 5 iyul 2017-ci il
№ 275

**“Bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydası və bununla bağlı ödənişin miqdarı”nın təsdiq edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 999-VQD nömrəli Qanununun tətbiqi və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 fevral tarixli 1838 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydası və bununla bağlı ödənişin miqdarı” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri**
**Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 26 sentyabr 2018-ci il
№ 417

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2018-ci il 26 sentyabr tarixli 417 nömrəli qərarı ilə**
**təsdiq edilmişdir.**

## Bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydası və bununla bağlı ödənişin miqdarı

### 1. Ümumi müddəa

1.1. Bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydası və bununla bağlı ödənişin miqdarı (bundan sonra – Qayda) “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 5.1-1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydasını və bununla bağlı ödənişin miqdarını müəyyən edir.

### 2. Sorğu əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi

2.1. Bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrindən aşağıdakı hallarda məlumatlar verilir:

2.1.1. Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş “Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə”nin 23-cü maddəsinə uyğun olaraq, bələdiyyə tərəfindən torpaq sahəsinin mülkiyyətə ayrılması ilə əlaqədar həmin torpağın qiymətinin müəyyənləşdirilməsi məqsədi ilə notariat qaydasında təsdiq edilmiş alqı-satqı müqavilələrində göstərilmiş qiymətlər barədə;

2.1.2. fiziki şəxslərin torpaq və əmlak vergisinin hesablanması və tutulması məqsədi ilə bələdiyyə ərazisində yerləşən daşınmaz əmlak üzərində mülkiyyət hüquqları qeydiyyata alınmış fiziki

şəxslər, onların binanın sahəsindəki payları, mülkiyyətdə olan tikililərin və ya onların hissələrinin ölçüləri və ünvanı, həmçinin onların mülkiyyətində və istifadəsində olan torpaq sahələrinin ölçüləri, ünvanı və kateqoriyası barədə;

2.1.3. Qanunda nəzərdə tutulmuş səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-1-ci maddəsinə uyğun olaraq əsaslandırılmış sorğular əsasında dövlət reyestrində saxlanılan digər məlumatlar barədə.

2.2. Bələdiyyə tərəfindən təqdim olunmuş əsaslandırılmış yazılı və ya elektron sorğular Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin müvafiq ərazi idarəsi (bundan sonra - ərazi idarəsi) tərəfindən cavablandırılmaqla dövlət reyestrindən elektron qaydada, bu mümkün olmadıqda isə yazılı məlumatın verilməsi təmin edilir.

2.3. Bu Qaydanın 2.1.1-ci yarımbəndində göstərilən məlumatlar bələdiyyənin sorğusu əsasında 3 (üç) gün müddətində, 2.1.2-ci yarımbəndində göstərilən məlumatlar bələdiyyə ərazisində yerləşən bütün daşınmaz əmlakı əhatə etməklə bələdiyyənin sorğusu əsasında dövri olaraq hər il ən geci 1 iyun tarixinədək, onların tərkibində baş vermiş dəyişikliklər, həmçinin bu Qaydanın 2.1.3-cü yarımbəndində göstərilən məlumatlar isə 7 (yeddi) gün müddətində verilir.

2.4. Hüquq sahibinin yazılı və ya elektron sorğusuna əsasən ona məxsus olan daşınmaz əmlak haqqında ərazi idarəsi tərəfindən bələdiyyəyə verilmiş arayışlar barədə yazılı və ya elektron bildiriş, sorğunun verildiyi gün iş vaxtı ərzində hüquq sahibinə göndərilir.

### 3. Məlumatın verilməsi müqabilində ödənişin miqdarı

3.1. Fiziki şəxslərin əmlak və torpaq vergisinin hesablanması və tutulması məqsədi ilə dövri olaraq sorğu əsasında hər il ən geci 1 iyul tarixinədək təqdim olunan daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının əldə edilməsi üçün bələdiyyə tərəfindən haqqında məlumat əldə edilən hər bir əmlaka və ya torpaq sahəsinə münasibətdə 1 (bir) manat xidmət haqqı ödənilməlidir.

3.2. Bu Qaydanın 2.1.1-ci və 2.1.3-cü yarımbəndlərində qeyd edilən məlumatların əldə edilməsi üçün bələdiyyə tərəfindən haqqında məlumat əldə edilən hər bir əmlaka və ya torpaq sahəsinə münasibətdə 1 (bir) manat xidmət haqqı ödənilməlidir.

3.3. Bələdiyyələrin sorğusu əsasında daşınmaz əmlakın dövlət reyestrindən verilən məlumatlara görə bu Qayda ilə müəyyən edilən xidmət haqqından başqa, hər hansı digər ödənişlər tələb oluna bilməz.

### 4. Məlumatın verilməsi müqabilində ödənişin həyata keçirilməsi proseduru

4.1. Dövlət reyestrindən məlumatın əldə edilməsi üçün nəzərdə tutulan xidmət haqqının ödənişi elektron ödəmə sistemləri, o cümlədən internet vasitəsilə, həmçinin köçürmə yolu ilə həyata keçirilir. Xidmət haqqının ödənilməli olduğu ərazi idarəsinin hesabı barədə məlumat qeydiyyat orqanının rəsmi internet saytında yerləşdirilir.

4.2. Dövlət reyestrindən məlumatın əldə edilməsi üçün yazılı qaydada sorğu verilərkən, sorğuya xidmət haqqının ərazi idarəsinin hesabına ödənildiyini təsdiq edən sənəd əlavə olunur. Xidmət haqqı elektron ödəmə sistemləri, həmçinin internet vasitəsilə ödənildikdə, müvafiq ödəmə sistemindən çıxarış, köçürmə yolu ilə ödənildikdə, ödənişin icrasını təsdiqləyən bank və ya poçt sənədi verilir.

4.3. Dövlət reyestrindən məlumatın əldə edilməsi üçün elektron qaydada sorğu verilərkən, xidmət haqqı bələdiyyə tərəfindən real vaxt rejimində elektron formada ərazi idarəsinin hesabına ödənilir. Bu zaman xidmət haqqının elektron qaydada ödənilməsi imkanı ərazi idarəsi tərəfindən sistem vasitəsilə təmin edilir.

**Qeyd.** Bu Qaydada dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1150-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 iyun tarixli 157 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 791, № 10, maddə 1735; 2017, № 7, maddə 1473) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.9-1-ci və 3.1.9-2-ci yarımbəndlər əlavə edilsin:

"3.1.9-1. dərman vasitəsinin effektivliyi və təhlükəsizliyi üzərində dövlət nəzarətinin həyata keçirilməsi məqsədi ilə dərman vasitələrinin təhlükəsiz istifadəsinin təmin edilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq farmakonəzarət üzrə tədbirlər görmək və farmakonəzarət üzrə məsul şəxs müəyyən etmək;

3.1.9-2. dərman vasitələrinin əlavə təsirləri və dərman vasitələrinin istifadəsi zamanı yaranan digər arzuolunmaz nəticələr barədə məlumatları, həmçinin farmakonəzarət üzrə məlumatları və hesabat sənədlərini Nazirliyə təqdim etmək;".

**Azərbaycan Respublikasının Baş naziri**
**Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 25 oktyabr 2018-ci il
№ 465

**“Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1314-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 noyabr tarixli 746 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**
**Q Ə R A R I**

“Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1314-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 noyabr tarixli 746 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə:

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1314-VQD nömrəli Qanununa (bundan sonra - Qanun) uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının Qanuna uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Razılaşma prosesinin iştirakçıları (əsas və birgə icraçılar) bu Sərəncamın icrası ilə bağlı normayaratma vəzifələrindən irəli gələn məsələlər üzrə (layihə və təkliflərin baxılması, hazırlanması, razılaşdırılması, təqdim edilməsi və s.) müvafiq tədbirlər görüb, icra vəziyyəti tələb etdikdə, məlumatları icra üçün ayrılmış müddətin birinci yarısı başa çatanadək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər. Eyni zamanda, hüquqi aktların layihələrini əsas icraçıya təqdim edən subyektlər “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun müvafiq olaraq 48.2-ci, 48.3-cü və 48.5-ci maddələrinin tələblərinə əməl edilməsini təmin etsinlər.

3. Mərkəzi icra hakimiyyəti orqanları üç aydan gec olmayaraq, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1314-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 noyabr tarixli 746 nömrəli Sərəncamının 1.3-cü bəndinin və 2-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Qanuna uyğunlaşdırılmasını təmin edib, bu barədə dörd ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının hüquq şöbəsinə həvalə edilsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**Novruz Məmmədov**

Bakı şəhəri, 5 dekabr 2018-ci il

**“Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında”**

**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**
**Q Ə R A R I**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 fevral tarixli 38 nömrəli Qərarında dəyişiklik edilməsi barədə “Daşınar əmlakın yüklülüyü haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1429-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 863 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 fevral tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı”na aşağıdakı məzmunda 2.2-ci bənd əlavə edilsin:

2.2. “Elektron icra” İnformasiya Sistemi

**Azərbaycan Respublikasının Baş naziri**
**Novruz Məmmədov**

Bakı şəhəri, 27 mart 2019-cu il
№ 127

**“Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi və “Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı”nın təsdiq edilməsi haqqında”**

**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**
**Q Ə R A R I**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 yanvar .tarixli 7 nömrəli Qərarında dəyişiklik edilməsi barədə “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

1. “Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. “Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 yanvar tarixli 7 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 1, maddə 60; 2012, № 5, maddə 484, № 6, maddə 625, № 10, maddə 1008; 2013, № 10, maddə 1230; 2015, № 12, maddə 1561; 2016, № 10, maddə 1701, № 12, maddə 2239; 2017, № 4, 2 maddə 640, № 12 (II kitab), maddə 2536; 2018, № 5, maddə 1143, № 11, maddə 2429) 1-ci hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları:

3.1. tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələri istisna olmaqla) publik hüquqi şəxslərə çevrilmə şəklində yenidən təşkili barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

3.2. bu Qərarın 3.1-ci bəndində nəzərdə tutulmuş yenidən təşkiletmə barədə qərar qəbul edildiyi tarixdən iki ay müddətində bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələri istisna olmaqla) nizamnamələrini təsdiq etsinlər;

3.3. bu Qərarın 3.2-ci bəndində nəzərdə tutulmuş nizamnamələr təsdiq edildikdən sonra tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətləri beş gün müddətində etmələrini təmin etsinlər;

3.4. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədə sonradan ediləcək dəyişikliklərdən irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələri istisna olmaqla) nizamnamələrində dəyişiklikləri bir ay müddətində təsdiq etsinlər və bundan irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətləri beş gün müddətində etmələrini təmin etsinlər.

4. Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin nizamnamələrini bu Qərarın 5.2-ci bəndində nəzərdə tutulmuş təklif təqdim edildiyi gündən iki ay müddətində və nizamnamələrində dəyişiklikləri bu Qərarın 5.4-cü bəndində nəzərdə tutulmuş təklif təqdim edildiyi gündən bir ay müddətində təsdiq etsin.

3 5. Dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər: 5.1. tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin publik hüquqi şəxslərə çevrilmə şəklində yenidən təşkili barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

5.2. bu Qərarın 5.1-ci bəndində nəzərdə tutulmuş yenidən təşkiletmə barədə qərar qəbul edildiyi tarixdən bir ay müddətində bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin nizamnamələrinin təsdiq edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim etsinlər;

5.3. bu Qərarın 5.2-ci bəndində nəzərdə tutulmuş nizamnamələr təsdiq edildikdən sonra tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətləri beş gün müddətində etmələrini təmin etsinlər;

5.4. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədə sonradan ediləcək dəyişikliklərdən irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin nizamnamələrində dəyişikliklərin təsdiq edilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim etsinlər və bundan irəli gələrək tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətləri beş gün müddətində etmələrini təmin etsinlər.

6. Bu Qərarın 3.1-ci və 5.1-ci bəndlərinin icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinə həvalə edilsin.

7. Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Azərbaycan Respublikasının Baş Naziri**
**Novruz Məmmədov**

Bakı şəhəri, 13 may 2019-cu il
№ 219